Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

12 İYUN 2019-cu il

№ 102 (4000)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# QONDARMA «DQR»də FUTBOL TURNİRİNDƏ VANDAN OLAN «QƏRBİ ERMƏNİSTAN» KOMANDASI... (?) ...

■ səh. 5 ■

Ermənistan nazirinin Azərbaycan əsgərini öldürtdürməsi sübuta yetdi, vasitəçilər yenə susdu...

■ səh. 3 ■

Cəbhə təxribatlarının arxasında müharibəni körükləmək niyyəti - Ermənistandan qondarma "DQR"ə ilk maliyyə sanksiyası...

■ səh. 9 ■

Putinlə qaz söhbəti alınmayan Paşinyan "yeni silahlardan" danışmağa başlayıb...

■ səh. 8 ■

Rusiya - Gürcüstan sazişi Ermənistana axan qazı bir az da bahalaşdırdı

■ səh. 6 ■

Azərbaycan Rusiya bazarlarında bəzi məhsullar üzrə Çinin dominantlığına son qoyacaq

■ səh. 10 ■

AMEA-da ev bölgüsündən narazı qalanlara Akademiyanın cavabı...

■ səh. 15 ■

Yaş salfetkaların uşaqlar üçün fəsadları var imiş...

■ səh. 15 ■



## Qazaxıstanla Ermənistanı bağlayan dil və tarix ortaqlıqları? - Türkdilli ölkənin yeni Prezidenti dilçi və tarixçiləri şoka saldı...

■ səh. 8 ■



Heydər Əliyev gəlməsəydi - AXC-Müsavat cütlüyünün indiki səviyyədə neft strategiyası aparmaq perspektivsizliyi...

■ səh. 3 ■

Köhnə «DəmirBank»ın bir qrup işçisinin «Atəşgah sığorta» ilə qalmaqallı problemi başlayıb

■ səh. 12 ■



Ermənilər Azərbaycanın öz torpaqlarını hərbi yolla azad edəcəyi planın detalları barədə danışmağa başlayıb

■ səh. 4 ■

Əhali artımına xidmət edən struktur layihələr - xaricilər daha bir Azərbaycan nümunəsi barədə eşitdilər

■ səh. 11 ■



İran Ermənistan KİV-in daha bir yalanını açdı - Şuşa məscidindəki iş bizlik deyil...

■ səh. 5 ■



Ermənistanın yeni xülyası - İranla Avrasiya İB arasında ticarət körpüsü olmaq... Qarabağla əlaqəli gizli planlar da ola bilər...

■ səh. 4 ■



Bu ilin dörd ayında sığorta yığımı 12 faiz azalıb - niyə...

■ səh. 13 ■



1, 3 və 5 qəpiklər dövriyyədə olmasa nə baş verər ki...

■ səh. 11 ■



## Prezident təhsil müəssisələrinin qazlaşdırılmasına 5,7 milyon manat ayırdı

**Prezident İlham Əliyev Azərbaycanda təhsil müəssisələrinin qazlaşdırılması haqqında sərəncam imzalayıb.**

"Trend"in məlumatına görə, sərəncamda deyilir ki, təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 5,7 milyon manatı Təhsil Nazirliyinə ayrılsın.

Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməli, Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşü keçiriləcək



**İyunun 12-də Qəbələ şəhərində Azərbaycanın Müdafiə naziri Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Gürcüstanın Müdafiə naziri Levan İzoriya arasında üçtərəfli görüş keçiriləcək.**

Bu barədə "Trend" Müdafiə Nazirliyinə istinadən xəbər verir.

Görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılacaq.

## Ermənistanla "DQR" separatçıları arasında böhran dərinləşir - Paşinyan Saakyanın pulunu kəsdi

**Nikol Paşinyan hökuməti Dağlıq Qarabağ separatçılarının maliyyə yardımı barədə xahişini rədd edib. Baki-xeber.com Sputnik Azərbaycan-a istinadən xəbər verir ki, bu barədə Ermənistanın "Politik" nəşri məlumat yayıb.**

Məlumata əsasən, İrəvan rəhbərliyi maliyyə köməkliyi qarşılığında qondarma "Dağlıq Qarabağ Respublikası"nın "təhlükəsizlik şurasının sədri" Vitali Balasanyanın istefaya göndərilməsini tələb edib.

Erməni nəşri yazır ki, rəsmi İrəvan artıq iki aydır Dağlıq Qarabağ separatçılarının maliyyə yardımı barədə xahişini rədd edir. Nəşrin mənbələri yaranmış vəziyyəti Ermənistanın "Dağlıq Qarabağa" sanksiya tətbiqinə dair ilk hal adlandırıb.

Qeyd edək ki, daha əvvəl Qarabağ separatçılarının lideri Bako Saakyan Balasanyanla görüşüb və ona istefaya getməyi təklif edib. Saakyan Balasanyana izah edib ki, onun istefasını Ermənistan rəhbərliyi tələb edir.

# Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib

**Prezident İlham Əliyev iyunun 11-də ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul edib.**

Bu barədə "Trend"ə Prezidentin Mətbuat Xidmətindən məlumat verilib.

Görüşdə Azərbaycanda iqtisadi inkişafın sabitliyə xidmət etdiyi vurğulanıb, Bakıda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin təkcə Azərbaycan üçün deyil, ümumilikdə region üçün önəm daşıdığı bildirilib.



Söhbət zamanı Azərbaycan-ATƏT Parlament Assambleyası əlaqələri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan iki ingilis futbol komandasının qalmaqallı finalından 680 milyon manat qazandı

**Dünyada böyük nüfuza sahib futbol turnirlərindən olan UEFA Avropa liqasının 2019-cu il 29 may tarixində Bakı şəhərində keçirilən final oyunu nəticəsində Azərbaycana birbaşa nağd şəkildə təxminən 175 milyon manat vəsait daxil olub, ümumilikdə isə 680 milyon manatlıq iqtisadi qazanc əldə edilib.**

Baki-xeber.com APA-ya istinadən xəbər verir ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hesablamalarına əsasən, bu göstəricilər beynəlxalq kontekstdə media üzərindən əldə edilən dəyər, turistlərin xərcləmələri, çarter reyslərlə təyyarə parkına eniş edən təyyarələrə göstərilən xidmətdən əldə edilən gəlir, oyunla əlaqədar UEFA tərəfindən çəkilən xərclər və digər göstəricilər əsasında müəyyənləşdirilib.




Rəsmi göstəricilərə əsasən, oyunu 300 milyona yaxın insan televiziya və internet üzərindən canlı izləyib. Mütəxəssislər hesab edir ki, beynəlxalq brendinq üzrə adambaşına düşən ortalama xərclər nəzərə alınsa, 300 milyona yaxın izləyici kütləsinə ölkəmizin media vasitəsilə tanıdılması üçün 505 milyon manatlıq vəsait ayrılmalı idi. Beynəlxalq turnirin Bakıda keçirilməsi eyni məbləğdə marketinq dəyəri yaradaraq, ölkəmizi yüz milyonlarla insana daha da yaxından tanıdıb.

Gənclər və İdman Nazirliyi və AFFA-nın məlumatlarına görə, final oyunu ilə bağlı ölkəyə gələn xarici turistlərin sayı 37,4 min nəfər olub. Onların hesabına ölkəmizə 115 milyon manatlıq nağd vəsait daxil olub. İqtisadi dəyərin 1.25 milyon manatdan çoxu Avroliqanın final oyununun keçirilməsi üçün cəlb olunan işçilərin əmək haqları hesabına yaranıb.

AZAL-dan daxil olan məlumatlarda isə 108 çarter reysi üçün alınan xidmət haqqının 687 min manatdan çox olduğu əksini tapıb.



# Azərbaycanın "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq vəziyyəti yüksək qiymətləndirildi

**Milli Olimpiya Komitəsində iyulun 21-də Bakıda başlayacaq XV Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq işləri ilə bağlı Əlaqələndirmə Komissiyasının sonuncu toplantısı keçirilib.**

Gənclər və İdman Nazirliyindən "Trend"ə verilən məlumata görə, toplantıda gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini Azər Əliyev, təşkilat komitəsinin üzvləri, eyni zamanda, yarışa hazırlıq işləri ilə daha yaxından tanış olmaq üçün Bakıda səfərdə olan Avropa Olimpiya Komitəsi Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki və Əlaqələndirmə Komissiyasının üzvləri iştirak edib. A.Rəhimov Avropa ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərini Bakıda salamlayaraq deyib: "İnanmaq çətindir ki, düz bir il bundan əvvəl biz sizinlə 15-ci Avropa Olimpiya Gənclər Festivalı ilə bağlı ilk müzakirələri aparırdıq. Bu gün artıq yarışların başlamasına 40 gün qalır. Əminliklə, ötən müddət ərzində hazırlıqla bağlı çox böyük işlərin görüldüyünü deyə bilərəm. Biz oyunlara dəmək olar ki, tam hazırıq. Bu gün, sizinlə bir daha görülmüş işlərə nəzər salacaq və ətraflı fikir mübadiləsi aparacayıq."

Toplantı zamanı "Bakı-2019" Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıqla bağlı Əməliyyat Komitəsinin gördüyü işlər, idman yarışlarının cədvəli, statistikası, risklərin idarə edilməsi, marketinq kampaniyaları, Milli Olimpiya komitələri arasında əlaqələrin qurulması və digər mühüm əhəmiyyət kəsb edən məsələlər müzakirə edilib.

Əməliyyat Komitəsinin gördüyü hazırlıq işləri ilə tanış olaraq, Avropa Olimpiya Komitəsi Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki deyib: "Bakının qarşıdakı festivala hazırlığını son dəfə dəyərləndirib əminliklə deyə bilərik ki, paytaxt bu cür mötəbər yarışı qəbul etməyə hazırdır. Biz əminik ki, idmançılar və azarkeşlər yarışmaların mükəmməl təşkilatından razı qalacaq".

Bakıda olduqları müddətdə Avropa Olimpiya Komitəsinin rəsmiləri Festivalın Açılış və Bağlanış mərasimlərinin keçiriləcəyi Bakı Kristal Zalında olan son hazırlıq işləri ilə də tanış olublar.

Qeyd edək ki, bu Əlaqələndirmə Komissiyasının sayca artıq üçüncü toplantısıdır, birinci toplantı 2018-ci ilin iyul ayında, ikinci isə 2019-cu ilin yanvar ayında baş tutub.

Xatırladaq ki, Avropa Gənclər Yay Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə heyəti gələcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# Heydər Əliyev gəlməsəydi - AXC-Müsavat cütlüyünün indiki səviyyədə neft strategiyası aparmaq perspektivsizliyi...

**1993-cü ildə dövlət idarəçiliyindəki kobud səhvlərin məntiqi nəticəsi olaraq ağır sosial-iqtisadi gərginlik pik həddinə çatdı. Nəticədə ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldı. O zaman vəziyyəti düzgün qiymətləndirən xalqın qərarı Bakıya - ölkə rəhbərliyinə ulu öndər Heydər Əliyevin gəlməsi idi.**

*"Bütün bunlar elə bir dövrdə baş tutdu ki, kifayət qədər böyük risqlər var idi"*

***Əli Əlirzayev:** "Heydər Əliyev hakimiyyətə gəlməsəydi, neft strategiyası indiki səviyyədə qurulmazdı"*



Ölkəyə rəhbərlik edən qüvvələr Azərbaycanı saldıqları girdabdan xilas etmək üçün ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini arzulayırdılar.

İyunun 9-da Heydər Əliyevin Bakıya gəlişi Azərbaycanın taleyindəki nigaranlığa son qoydu. Bütün dünyanın izlədiyi bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və bununla da Azərbaycanın ən yeni tarixində növbəti və bu günə qədər davam edən uğurlu bir mərhələ başladı.

Heydər Əliyevin qayıdışı ilə həm də Azərbaycanın uğurlu enerji, neft siyasətinin, neft strategiyasının əsası qoyuldu. İlkin tarixi mərhələ 1994-cü ilin 20 sentyabr tarixində "Əsrin müqaviləsi"nin imzalanması ilə yekunlaşdı. Heydər Əliyevin sayəsində bu tarixi müqavilə həyata vəsiqə qazandı və həmin vaxtdan başlanan yol "Bakı-Tiflis-Ceyhan", "Bakı-Tiflis-Ərzurum", "Cənub Qaz Dəhlizi", TANAP və sair tarixi və möhtəşəm layihələrlə özünü nümayiş etdirdi və bu yol hələ də uğurla davam edilməkdədir.

Bütün bunların fonunda, Heydər Əliyev hakimiyyətə gəlməsəydi, AXC-Müsavat hakimiyyəti ölkənin neft strategiyasını indiki səviyyədə qura bilərdimi?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, Heydər Əliyev hakimiyyətə gəlməsəydi, neft strategiyası indiki səviyyədə qurulmazdı:** "Neft kontraktlarının imzalanması bilavasitə Heydər Əliyevin şah əsəri idi. Çünki onun sayəsində Azərbaycanın maraqları daha üstün səviyyədə qorundu. O zaman bununla bağlı müxtəlif fikirlər, suallar səslənirdi. Hansı ölkələrlə müqavilə imzalamaq daha məqsədəuyğundur? Təminat səviyyəsi necə olmalıdır? Bu layihələrin reallaşması nəticəsində Azərbaycan iqtisadiyyatı necə olacaq? Heydər Əliyevin o vaxt siyasətində bunlar əsas yer tuturdu. Yəni Azərbaycanın marağı ön sırada idi. Onun əsas məqsədi o idi ki, neft strategiyası hesabına Azərbaycan inkişaf etsin. Neftdən gələn gəlirlərin bölgüsü, Azərbaycanın payı əsas məsələlərdən biri idi. O zaman Neft Fondu yaradıldı. Xarici şirkətlər Azərbaycana cəlb edildi. Bütün bunlarda Heydər Əliyevin müstəsna xidmətləri var. Həm də bütün bunlar elə bir dövrdə baş tutdu ki, kifayət qədər böyük risqlər var idi. Heydər Əliyev şəxsiyyəti xarici dövlətləri ölkənin neft sektoruna sərmayə qoymağa həvəsləndirdi. O zaman Heydər Əliyevdən başqa heç bir siyasi qüvvə bunu bacarmazdı".

***Vidadi ORDAHALLI***

# Ermənistan nazirinin Azərbaycan əsgərini öldürtdürməsi sübuta yetdi, vasitəçilər yenə susdu...

**İki gün əvvəl cəbhə xəttində erməni tərəfinin açdığı atəş nəticəsində Gədəbəy rayonu, Köhnəqışlaq kəndinin sakini, 2000-ci il təvəllüdlü, əsgər Elşən Xəlilov şəhid olub. Tərtər rayonunda baş verən bu insidentdən bir neçə gün əvvəl Ağdam istiqamətində də erməni snayperin açdığı atəş nəticəsində Azərbaycan Ordusunun mayoru Aqil Ömərov şəhid olmuşdu.**




***Elşən Həsənov:** "Bütün bu hərəkətlər sülh danışıqlarını, beynəlxalq vasitəçilik missiyalarını saymamaq anlamına gəlir"*

Ermənistanın müdafiə naziri David Tonoyan bəyan edib ki, Tərtər istiqamətində azərbaycanlı əsgərin öldürülməsi əmrini şəxsən verib. Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən, azərbaycanlı əsgəri şəhid edən erməni hərbçilər mükafatlandırılıb. Bəyanatda bildirilir ki, 1 iyun tarixində Xocavənd istiqamətində Azərbaycan mövqelərindən açılan atəş nəticəsində erməni əsgər Sipan Melkonyan öldürülüb. Bu isə qisas aksiyası olub.

Tonoyanın bəyanatı bir daha sübut edir ki, cəbhə xəttində törədilən təxribatların arxasında birbaşa Ermənistan rəhbərliyi dayanır. Bəllidir ki, bu cür əməlləri ilə ermənilər sülh danışıqlarını pozmağa çalışırlar. Ancaq, nədənsə, Ermənistan rəhbərliyinin bu açıq təxribatlarına belə, vasitəçilər susqun mövqe nümayiş etdirirlər. Həmsədrlərin bu sükutunu nə ilə izah edə bilərik?

**Ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, təmas xəttində baş verən son hadisələrlə bağlı həmsədrlər və digər beynəlxalq qurumlar kəskin reaksiya verməlidirlər:** "Bunun erməni təxribatı olduğunu müəyyən etmək üçün elə bir ciddi araşdırmaya ehtiyac duyulmur. Elə həmsədrlərin özləri Azərbaycanda olanda bizim mayorumuz şəhid oldu. Bunun ardınca isə XİN rəhbərlərinin nəzərdə tutulan görüşü ərəfəsində daha bir əsgərimiz öldürüldü. Ermənistanın rəsmi şəxsi açıq bəyan etdi ki, əsgərin öldürülməsi əmrini o verib, hətta onun əmrini icra edən əsgəri mükafatlandırdı. Bütün bu hərəkətlər sülh danışıqlarını, beynəlxalq vasitəçilik missiyalarını saymamaq anlamına gəlir. Ermənistanda həm də hakimiyyətsizlik sindromu baş qaldırdığı üçün, kim orduya necə istəyir, elə də əmr verir. Artıq görünən budur ki, bu cür başıpozuq rejimlə hansısa sülh danışıqlarının aparılması perspektivi ümidverici deyil. Təəssüflər olsun ki, bu cür aşkar əməlləri ortada ola-ola, münaqişənin nizamlanması ilə məşğul olan vasitəçi ölkələr və həmsədrlər prosesi sükutla seyr edirlər. Axı burada növbətçi, məsuliyyəti tərəflərin üzərinə bərabər qoyan bəyanatın verilməsi yersizdir. Burada konkret deyilməlidir ki, Ermənistanın rəhbərliyi müharibə etmək istəyir və sülh danışıqlarını tormozlayır. Məhz bunu etməyə cəsarətləri çatmadığı üçün həmsədrlər susur. Amma bu cür mövqe etimad mühitini zəiflədir və sülhə olan inamı kökündən sarsıdır. Yəqin ki, bütün bunların fonunda, Azərbaycan tərəfinin də yeganə yolu adekvat cavab verməyə qalır. Görünən budur ki, hakimiyyəti idarə edə bilməyən Paşinyan cəbhədəki vəziyyəti gərginləşdirməklə diqqəti ölkə daxilindən yayındırmağa can atır. Amma bizim də səbrimizin həddi var. Qoy həmsədrlər dəqiq müəyyənləşdirsinlər: ya ortada nəticəyə hesablanan danışıqlar olsun, ya da müharibə. Belə imitasiyalarla uzağa getmək olmaz".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanın tez-tez keçirdiyi irimiqyaslı hərbi təlimlər Ermənistanı ciddi narahat etməyə başlayıb. Xüsusilə də Naxçıvan ərazisində keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinə erməni tərəfi daha həssas və təşviş dolu reaksiyalar verir. Əsas səbəb isə odur ki, baş verən son hadisələr cəbhədə yaxın tezlikdə irimiqyaslı toqquşmaların başlanacağını istisna etmir.**

# Ermənilər Azərbaycanın öz torpaqlarını hərbi yolla azad edəcəyi planın detalları barədə danışmağa başlayıb

## Üzeyir Cəfərov: "Biz ərazimizin işğaldan azad edilməsi üçün ən optimal variantları tətbiq edəcəyik"



Məhz bu vəziyyətdə Azərbaycanın təlimlərinin real döyüş əməliyyatlarına çevrilə bilməsi Ermənistanda ciddi xof yaradır. "Modus Vivendi" mərkəzinin direktoru Ara Papayan bildirir ki, Azərbaycan və Türkiyə 7-11 iyun tarixləri arasında Naxçıvanın Ermənistanla sərhəd rayonlarında "Sarsılmaz qardaşlıq-2019" adı altında birgə təlimlər keçiriblər. Onun sözlərinə görə, İrəvan şəhərindən cəmi 50-60 kilometr məsafədə belə bir təlimin keçirilməsi, təbii ki, ciddi təşviş yaradır: "Bu çox təhlükəlidir, ona görə ki, təlimlər ehtimal edilən müharibə vaxtı Naxçıvan cəbhəsinin də açılacağını göstərir. Bunu deməyə o əsas verir ki, Azərbaycan Naxçıvan sərhədində öz mövqelərini irəli çəkib. Azərbaycanın mövqelərini irəli çəkməsi Yerasx-Vayk magistralının heç olmasa bir hissəsini birbaşa atəş altında saxlamağa imkan verir. Qarabağ müharibəsi baş verərsə, Azərbaycan tərəfi Naxçıvan və Tavuş istiqamətindən 2 alt cəbhə yaratmağa çalışacaq. Bununla da erməni tərəfinə Qarabağ cəbhəsində cəmləşməyə imkan verməyəcəklər, çünki paytaxtı qoruma təhlükəsi yaranacaq".

Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək kimi haqqı və hüququ var. Dəfələrlə bəyan edilib ki, sülh danışıqları səmərə verməyəcəyi təqdirdə ölkəmiz həmin hüququndan istifadə edəcək. Təbii ki, belə olan təqdirdə torpaqlarımızın azad edilməsi ilə bağlı ordumuzun müəyyən planları da ola bilər. Yuxarıda qeyd edilən plan barədə isə hələlik biz yox, düşmən tərəf danışır. Söhbət Naxçıvandan cəbhənin açılması nəticəsində ermənilərin bütün diqqəti paytaxtı qorumağa yönəltməsi və bunun da nəticəsində Dağlıq Qarabağa güclü həmlə etməklə torpaqları işğaldan azad etmək kimi plandan gedir. Düşmən tərəfin ehtimal etdiyi bu plan Dağlıq Qarabağ və ətraf rayonları azad etmək üçün yetərli sayıla bilərmi?

**Hərbi ekspert Üzeyir Cəfərov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, biz düşmənin nə fikirləşdiyinə uyğun şəkildə işimizi qurmamalıyıq:** "Biz də görürük ki, keçirdiyimiz hərbi təlimlərdən onlar çox narahatdırlar. Qoy olsunlar. Azərbaycan onlardan icazə almalıdır? Biz nə təlim, nə də hardan həmlə edəcəyimizlə bağlı kimdənsə icazə almamalıyıq. Onların ehtimal etdiyi versiyalar işin bir tərəfi sayıla bilər və istisna edilmir. Narahat olmasınlar, biz ərazimizin işğaldan azad edilməsi üçün ən optimal variantları tətbiq edəcəyik. Tonoyanın son bəyanatı birbaşa meydan oxumaqdır. Mən başa düşə bilmirəm, niyə bizim Hərbi Prokurorluq ona 120-ci maddə ilə cinayət işi qaldırmır? Bəzi məsələlərdə biz gecikirik. Serj Sarkisyan özü etiraf etdi ki, Xocalı faciəsində iştirak edib, amma nədənsə biz onunla bağlı sənədləri İnterpola verməyə tələsmirik. Biz bu yaramazları cəzasız qoyduqca, onların ayaqları yer alır.

*"Naxçıvandakı təlimlər doğrudan da qarşıda duran uzaqgörən məqsədlər üçün hesablanıb"*

Naxçıvandan və ya başqa yerdən hücum etmək bizim hüququmuzdur. Bunu bizə kimsə qadağan edə bilməz. Necə olur ki, Ermənistanın uzun sürən işğalına hamı göz yumur, amma Azərbaycanın hərbi təlimləri geniş müzakirə mövzusuna çevrilir?

1921-ci ilin müqaviləsini tez-tez hallandırırlar və bundan narahatlıq ifadə edirlər. Türkiyə Naxçıvanın təhlükəsizliyinə cavabdehlik daşıyan bir ölkədir. Nə qədər ki, qardaş Türkiyənin gücü var, biz bu məsələdən narahat olmamalıyıq. Bundan əlavə, hazırda Naxçıvandakı Azərbaycan Ordusunun gücü nəinki müdafiə edilməyə, hətta düşməni öz paytaxtına kimi qovmaq üçün yetərlidir. Bəli, keçirilən təlimlərin əsas məqsədi düşmənin strateji nöqtələrini necə sıradan çıxarmağın yollarını mənimsəməyə yönəlib. Ermənilər nə qədər narahat olsa da, biz öz işimizi görməliyik. Qəbələdə Türkiyə, Azərbaycan, Gürcüstan müdafiə nazirlərinin görüşü olacaq. Ardınca üç ölkənin birgə təlimləri başlayacaq. Bu formatda təlimlər əvvəllər də olub. Ermənistan başqa dövlətlərlə hərbi əməkdaşlıq edirsə, biz niyə etməyək?! Naxçıvandakı təlimlər doğrudan da qarşıda duran uzaqgörən məqsədlər üçün hesablanıb. İnşallah, bəhrəsini yaxın zamanda görərik".

*Məhəmmədəli*
*QƏRİBLİ*

**İran Parlamenti Azad Ticarət Zonası (ATZ) barədə Avrasiya İqtisadi İttifaqı (Aİİ) ilə sazişi ratifikasiya edib. Aİİ və İran 2018-ci ilin may ayının 17-də Astana (indiki Nursultan - V.O.) İqtisadi Forumunda azad ticarət zonasının yaradılması barədə müvəqqəti razılığa gəlib.**

# Ermənistanın yeni xülyası - İranla Avrasiya İB arasında ticarət körpüsü olmaq... Qarabağla əlaqəli gizli planlar da ola bilər...

## Elşən Manafov: "Ümumiyyətlə, Ermənistan Aİİ-də iqtisadi anlamda ciddi əhəmiyyət kəsb edən dövlət deyil"



Saziş 3 il üçün nəzərdə tutulub və Aİİ ilə İran arasında malların məhdud nomenklaturası üzrə ATZ-nin yaradılmasını özündə ehtiva edir.

Müqavilənin şərtlərinə görə, qüvvəyə mindikdən sonra, 1 ildən gec olmayaraq, tərəflər azad ticarət barədə tam razılığa gəlmə barədə danışıqlara başlamalıdırlar. Sazişin reallaşması tərəflər arasında iqtisadi əlaqələrin inkişafına və ticarətin həcmini artırmağa, həmçinin, Rusiyanın sənaye və kənd təsərrüfatı məhsullarının İrana tədarükünün çoxalmasına şərait yaradacaq. İranla Aİİ arasında saziş bütün iştirakçılar üçün gömrük yükünün yüngülləşdirilməsini nəzərdə tutur. Söhbət 500-dən çox adda maldan gedir ki, bunların idxalı üçün sərhəddə alınan rüsumlar ya azaldılacaq, ya da tamamilə aradan qaldırılacaq.

Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan bildirib ki, Ermənistanın sayəsində Aİİ-nin xarici iqtisadi əlaqələri əlavə stimul qazanacaq. O hesab edir ki, Ermənistan və İran arasında siyasi-iqtisadi əlaqələr Aİİ-nin Yaxın Şərq regionuna daxil olması üçün şərait yaradıb. O bunu onunla əsaslandırır ki, Ermənistan Aİİ-nin üzvü olaraq İranla sərhədi olan yeganə ölkədir. Bu baxımdan, bir növ, Ermənistanı İranla Aİİ arasında vacib körpü hesab edir. Mnatsakanyan onu da bildirib ki, müqavilə qarşılıqlı ticarət həcmini əhəmiyyətli dərəcədə artıracaq.

Maraqlıdır, Ermənistan həqiqətən də Aİİ ilə İran arasında vacib körpü rolunda çıxış edə bilərmi? Digər tərəfdən, Dağlıq Qarabağdakı separatçı qurumun hansısa formada bu imkanlardan faydalanmaq imkanı ola bilərmi?

**Məsələyə münasibət bildirən politoloq Elşən Manafov hər iki versiyanı istisna etdi:** "Ermənistanın İranla sərhədi olsa da, Aİİ-nin üzvü olan digər dövlətlərlə birbaşa sərhədi yoxdur. Belə olan halda, Ermənistanın bu sahədə hansı önəmindən danışmaq olar? Aİİ yaradılarkən MDB-yə daxil olan ölkələrlə iqtisadi əlaqələrin gücləndirilməsi və Avropa İttifaqına alternativ ola biləcək bir qurumun yaradılması nəzərdə tutulurdu. Sonra elə oldu ki, Aİİ-də təmsil olunan ölkələr arasında iqtisadi əlaqələrin

*"Mnatsakanyan bu mənada Ermənistanın rolunu şişirdir"*

dərinləşməsi ön plana keçdi. Ermənistanın Aİİ-də təmsil olunması Rusiya üçün daha çox siyasi anlamda əhəmiyyət kəsb edir. Düzdür, Ermənistan yeganə Aİİ ölkəsidir ki, İranla həmsərhəddir. Ancaq Ermənistan Gürcüstan vasitəsilə Rusiya ilə əlaqə qura bilir. O baxımdan, Mnatsakanyan bu mənada Ermənistanın rolunu şişirdir. Ümumiyyətlə, Ermənistan Aİİ-də iqtisadi anlamda ciddi əhəmiyyət kəsb edən dövlət deyil.

Sovetlər dönəmində Ermənistan dotasiya ilə yaşadığı üçün, indinin özündə də bu ölkə Rusiya üçün daha çox problem yaradır. Qarabağdakı separatçı qurumun Aİİ-nin imkanlarından hansısa formada faydalanacağına gəldikdə isə, bu real görünmür. Ona görə ki, separatçı qurum beynəlxalq birlik tərəfindən tanınmır. İran da dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Bu baxımdan narahatlığa elə də əsas yoxdur".

*Vidadi ORDAHALLI*

# Qondarma "DQR"də futbol turnirində Vandan olan "Qərbi Ermənistan" komandası... (?) ...

**Son vaxtlar ermənilərin Türkiyənin adı ilə bağlı olan müəyyən xoşagəlməz və xüsusilə də Azərbaycanda böyük etirazla qarşılanan layihələrdə iştirak etdiyi barədə məlumatlara rast gəlirik. İki gün əvvəl Ermənistandan olan və tərkibində rəsmi şəxslərin də yer aldığı nümayəndə heyətinin Qars bələdiyyəsi tərəfindən xüsusi təmtəraqla qarşılandığının şahidi olduq.**



*"Bu proses sərhədlərin açılması, Ermənistanla münasibətlərin bərpa olunmasına istiqamətlənib"*

## ***Qabil Hüseynli:*** *"Türkiyədə yerli özünüidarəetmələrdəki hakim koalisiyadan kənar qüvvələr bir sıra proseslərə rəvac verməkdədirlər"*

Bunun ardınca isə düşmən ölkənin KİV-ində daha bir üzücü xəbər diqqətimizi cəlb etdi. Söhbət işğal altında olan Dağlıq Qarabağ ərazisində qondarma "DQR"in təşkil etdiyi "ConIFA- 2019" adlı futbol turnirindən gedir.

Məlumdur ki, həmin turnirdə əsasən tanınmayan separatçı qurumların komandaları iştirak ediblər. Ancaq bir sıra erməni KİV-ində məlumat verilib ki, yarışmanın finalında qondarma Cənubi Osetiyanın komandası Türkiyənin Van şəhərindən yarışa qatılan "Qərbi Ermənistan" komandası ilə üz-üzə gəlib. Türkiyənin adından hansısa bir komandanın qondarma qurumun ərazisində olan turnirdə çıxış etməsi necə mümkün olub və qardaş ölkənin rəsmi dairələri buna necə icazə veriblər?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məlumata əvvəl inanmayıb: "Sonra mən erməni saytlarına baxdım.** Hətta Rusiyaya aid olan bəzi KİV də həmin məlumatı təqdim edib. Orada "Qərbi Ermənistan" adlı komandanın Türkiyənin Van şəhərini təmsil etdiyi qeyd olunur. Bilirsiniz ki, Ermənistan rəsmi şəkildə Türkiyəyə qarşı ərazi iddiası irəli sürür. Hazırda Türkiyənin ərazisində olan bəzi şəhərlərin ərazisini "Qərbi Ermənistan" adlandırır. Yəni belə adda komandanın orada təşkil edilə bilməsi də mümkündür. Amma təqdimatda konkret olaraq Türkiyənin hansısa şəhərinin adı qeyd edilirsə, deməli, ortada maraqlı məqam var. Ermənistanla Türkiyə arasında heç bir əlaqə yoxdursa, belə bir komandanı hansısa şəhərin özünüidarəetmə qurumunun təşkil edə bilməsi də mümkün görünmür. Çünki burada söhbət sərhədi keçməkdən, müəyyən sənədlərin hazırlanması ilə bağlı prosedurlardan gedir ki, bunu da yalnız mühüm dövlət qurumlarının etməsi mümkündür. Görünür, Türkiyədə yerli özünüidarəetmələrdəki hakim koalisiyadan kənar qüvvələr bir sıra proseslərə rəvac verməkdədirlər. Bu proses sərhədlərin açılması, Ermənistanla münasibətlərin bərpa olunmasına istiqamətlənib. Bunun üçün kürdlər getdikcə fəallıq göstərirlər. Çünki biz Qarsla bağlı məsələdə də HDP izini gördük. Van şəhərində də kürdlər kompakt yaşayırlar. Əvvəla Van şəhər meriyasının sərhəddən keçmək haqqında icazə vermək səlahiyyətləri yoxdur. Bu məsələyə bilavasitə Türkiyə dövləti, hökuməti, xüsusilə də Xarici İşlər Nazirliyi nəzarət edir. Ola bilər ki, Türkiyənin bəzi dairələri bu üsulla turizmin inkişafına təkan verməyi düşünürlər. Çünki ermənilər Van ətrafına daha böyük maraq göstərirlər.Van gölü ətrafında ermənilərin "Axtamar" deyilən böyük bir kilsəsi var. Türkiyə dövləti çox böyük vəsait qoyaraq bu kilsəni təmir etdirib və müasir görkəmə salıb. Türkiyə hesab edir ki, bu, turizmin inkişafına təkan verəcək, dünyada olan ermənilər "Axtamar" kilsəsini ziyarət etmək üçün axışıb gələcəklər. Ermənilər turist sifətilə getsələr də, "Qərbi Ermənistan"ı yada salan komanda qururlar, "Ararat" adlandırdıqları (Ağrıdağ) dağın zirvəsinə qalxıb od qalamaq istəyirlər.

Bütün bunlar provokativ, meydanı həddindən artıq qızışdıran və heç bir beynəlxalq hüquq normasına sığmayan addımlardır. Ermənistanla Türkiyə arasında hər hansı bir diplomatik, işgüzar, ticari münasibətlər qurula bilməz. Axı Dağlıq Qarabağ problemi həll olunmayıb! Buna baxmayaraq, ermənilərin bu tip provokativ addımlarının qarşısının alınması üçün təcili tədbirlər görülməlidir. Xüsusilə də separatçı qurumun təşkil etdiyi futbol yarışında Türkiyədən komandanın qatılıb-qatılmadığı ilə bağlı rəsmi açıqlama verilməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# İran Ermənistan KİV-in daha bir yalanını açdı - Şuşa məscidindəki iş bizlik deyil...

**Ermənistan işğal altında saxladığı Dağlıq Qarabağ və ətraf rayonlarda Azərbaycan abidələrinə, tarixi tikililərinə qarşı kütləvi saxtalaşdırma kampaniyası həyata keçirir. Erməni saxtakarlığının qurbanı olan tarixi abidələrimizdən biri də Şuşadakı Gövhərağa məscididir.**



*"İran heç vaxt deməz ki, təmir işinə vəsaiti biz ayırmışıq"*

## ***Faiq İsmayılov:*** *"İran tərəfi məsələ ilə bağlı ona görə təkzib verir ki..."*

Bir neçə ildir ermənilər tərəfindən Gövhərağa məscidinin "restavrasiya" edilməsi barədə xəbərlər yayılır. Hətta erməni mətbuatı Gövhərağa məscidinin "fars məscidi" olması və həmin məscidin fars memarlıq üslubuna uyğun "bərpa" edildiyini də dəfələrlə yazıb. Məsələ burasındadır ki, ermənilər bu məscidin İran tərəfindən təmir edildiyini, bərpaya bu dövlət tərəfindən maliyyə vəsaiti ayrıldığını iddia etməkdə davam edirlər.

Bu günlərdə Ermənistan mətbuatı Şuşa şəhərində Gövhərağa məscidinin bərpa ediləcəyini, bərpa işlərinin İranın "Part Saman Cahan" şirkəti tərəfindən həyata keçiriləcəyinə dair məlumat yayıb.

İranın Xarici İşlər Nazirliyi isə erməni mediasının yaydığı xəbəri təkzib edib. İran XİN-in mətbuat xidmətinin rəhbəri Abbas Musəvi bildirib ki, Şuşada məscidin bərpasının İran şirkəti tərəfindən həyata keçiriləcəyinə dair məlumata malik deyillər. "İran "Part Saman Cahan" adlı yerli şirkətin Şuşa şəhərindəki "Gövhərağa" məscidinin bərpası işləri ilə məşğul olacağından məlumatsızdır. Bizdə Gövhərağa məscidinin bərpa işlərinin İran şirkəti tərəfindən həyata keçiriləcəyinə dair məlumat yoxdur" - deyə XİN rəsmisi bildirib.

Mətbuatın yaydığına görə, sözügedən İran şirkətinin rəhbəri kimi adı çəkilən Səid Nəhavəndi Ermənistanda memarlıq üzrə təhsil alıb.

**Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, İran XİN-in sözçüsünün məsələ ilə bağlı səsləndirdiyi fikirlər Azərbaycan-İran münasibətlərinin pozulmamasına hesablanıb.** F.İsmayılovun sözlərinə görə, Şuşadakı Gövhərağa məscidinin "bərpası"na maliyyə İran tərəfindən ayrılıb, lakin burada iş görənlər İran deyil, erməni memarlarıdır. "Məsələ belədir ki, İran şirkətlərindən biri Şuşadkı Yuxarı Gövhərağa məscidinin təmiri ilə bağlı Ermənistana vəsait ödəyib. Bu faktdır. Amma, faktiki olaraq, məsciddə həyata keçirilən təmir işləri erməni ustaları, memarları tərəfindən həyata keçirilir. Yəni İrandan ora bərpaçı gəlməyib, sadəcə, təmirin pulu İran tərəfindən ödənilib. Vəsaiti verən İran şirkəti, təmiri aparan isə Ermənistan şirkətidir. Ermənilər təmir işlərinin İran şirkəti tərəfindən aparılması ilə bağlı saxta məlumatı ona görə meydana atırlar ki, guya bu məsələyə başqa dövlətlər də maraq göstərir. Burada onların məqsədi qondarma "respublika"nı tanıtmaqdır. İran tərəfi məsələ ilə bağlı ona görə təkzib verir ki, o bu torpaqların Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş əraziləri olduğunu bilir. İranın Azərbaycanla da münasibətləri var. Yəni bu baxımdan İran heç vaxt deməz ki, təmir işinə vəsaiti biz ayırmışıq. Digər tərəfdən də, ola bilsin, İran bu vəsaiti dövlət hesabına ödəməyib, bu işə maliyyə ödənilməsini hansısa bir şirkətinə həvalə edib. Bilirsiniz, Ermənistanın o məsciddə hansısa bir təmir aparması üçün o qədər vəsaiti yoxdur. Onlar dilənçilikdə mahirdirlər. Ermənilər o vəsaiti ordan-burdan alıb öz siyasi məqsədlərini də bunların üzərinə qoyurlar və paylaşırlar. Ermənistan bu kimi işlər həyata keçirməklə qondarma "Dağlıq Qarabağ Respublikası"nın "müstəqilliyini" tədricən tanıtmaq istəyir. Onlar İranın vəsaiti ilə gördükləri işləri, bütövlükdə, bu dövlətin adına bağlayırlar. Əlbəttə, İran bu məsələdə günahsız deyil. Çünki onlar bu məsələyə vəsaiti bilərəkdən ayırıblar. Baxmayaraq ki, bu ərazilərin Azərbaycan torpaqları olduğunu bilirlər. İran işğal altında olan Azərbaycan torpaqlarında bizim abidələrin ermənilər tərəfindən "bərpa edilməsi" üçün Ermənistana maliyyə vəsaiti verməli deyildi" - deyə F.İsmayılov bildirdi.

***İradə SARIYEVA***

# Rusiya - Gürcüstan sazişi Ermənistana axan qazı bir az da bahalaşdırdı

*Gürcüstan özü Azərbaycanın hesabına ayaqda qalacaq, Ermənistanın isə çöküşü sürətlənəcək*

**Rusiya ilə işğalçı Ermənistan arasında münasibətlərin heç də rəvan surətdə inkişaf etmədiyi, əksinə, son bir il ərzində xeyli dərəcədə pisləşdiyi heç kimə sirr deyil. Elə bunun nəticəsidir ki, Moskva İrəvana qarşı müəyyən təzyiq rıçaqlarını işə salıb. Belə təzyiq rıçaqlarından biri də qazın qiyməti ilə bağlıdır.**



Xatırladaq ki, cari ilin əvvəlindən Rusiya Ermənistana satılan qazın qiymətini artırıb. İndi qiymətlərin aşağı salınması üçün Ermənistan baş naziri Nikol Paşinyan prezident Vladimir Putinə dəfələrlə minnətçi düşsə də, nəticə hasil olmur. Bu xüsusda Paşinyan özü də etiraf edir ki, qaz qiymətləri Rusiya ilə münasibətlərdə ölkəsi üçün vacib məsələdir: "Bu məsələnin bütün nüanslarını anlamaq lazımdır. Ona görə də mən Rusiya prezidenti ilə görüşdə bizim çox yaxşı iqtisadi dinamikamızın olduğunu dedim. Bizim qaz qiymətini razılaşdırmağımız çox vacibdir. Bu qiymətin bizim iqtisadiyyatımızda tempi yox etməməsi lazımdır. Ümid edirəm ki, biz ortaq dil tapacağıq. Belə ki, Rusiya ilə münasibətlərimiz adi deyil. Amma hələ qiymətlərdə razılığa gələ bilməmişik". Yuxarıda qeyd olunduğu kimi, Rusiya Ermənistana satdığı qazın qiymətini 2019-cu il yanvarın 1-dən artırıb. Belə ki, yanvarın 1-dən Ermənistan aldığı Rusiya qazının hər min kubmetrinə görə 150 dollar əvəzinə 165 dollar ödəyir. Perspektivdə isə qiymətlərin daha da artması gözlənir. Erməni mediası yazır ki, Rusiyanın qaz təzyiqinə əl atmasının əsas səbəbkarı elə Nikol Paşinyanın özüdür.

Məsələ burasındadır ki, Paşinyan Rusiya ilə münasibətləri pisləşdirən çoxsaylı addımlar atıb. Məsələn, ötən ilin noyabrında Ermənistanda "Qazprom Ermənistan" QSC-yə qarşı cinayət işi başlanıb. Şirkət hələ də külli miqdarda vergidən yayınmada ittiham edilir. Onu da qeyd edək ki, "Qazprom" Ermənistan istehlakçılarının yeganə qaz təchizatçısıdır. Düzdür, İrəvan İrandan qaz alır, ancaq o bundan yalnız elektrik enerjisi üçün istifadə edir. Belə vəziyyətdə Rusiyanın qaz qiymətlərini qaldırması Ermənistana birbaşa təsir edir. Digər tərəfdən məlumdur ki, Ermənistan hakimiyyəti 2008-ci il mart hadisələri ilə əlaqədar həbslər aparıb. KTMT-nin sabiq baş katibi Yuri Xaçaturov, sabiq prezident Robert Köçəryan və Rusiyaya bağlı digər adamların həbsə atılması, yaxud hələ də istintaq altında olması Kremldə heç də xoş qarşılanmır. Rusiyanın Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bu və digər məqamlarla bağlı Moskvanın İrəvana təzyiqlərinin artacağını bildirir. Ekspertin sözlərinə görə, indiki məqamda Rusiya və Ermənistan liderləri arasında qazın qiymətində razılaşma əldə edilməməsinin birbaşa siyasi səbəbləri var: "Putin və Paşinyanın razılaşmamasına səbəb Rusiya rəhbərliyinin Ermənistanın yeni rəhbərliyinə olan inamsızlığıdır. Bu etibarsızlıqdan irəli gələrək, Moskva KTMT baş katibi postuna Ermənistan tərəfinin nümayəndəsinin təyin edilməsini istəmədi. Moskva düşündü ki, bu vəziyyətdə gizli informasiyaların xarici xüsusi xidmət orqanlarına ötürülmə risqi çox yüksəkdir. Bu fonda Rusiyanın Ermənistana satdığı qazın qiymətinin əvvəlki kimi qalmasının mənası yoxdur. Moskva qiymətləri qaldırmağı davam etdirəcək və bununla başa salmağa çalışacaq ki, onu Amerikameyilli Ermənistan hökuməti qane etmir.

Paşinyanın sözlərinə görə, Rusiyanın Ermənistana satdığı qazın qiyməti ilə bağlı heç bir uğursuzluq yoxdur. Ermənistan baş naziri xalqı inandırmağa çalışır ki, Rusiya ilə əlaqələrdə heç bir dramatik vəziyyət yoxdur və hər şey yaxşıdır. Ancaq belə deyil. Və bu, zaman keçdikcə özünü daha çox büruzə verir. İndi Paşinyan deyir ki, Tehranla razılaşsa, İranın Ermənistana qaz idxalı mümkündür. Belə çıxır ki, Ermənistan Rusiya qazına alternativ axtarır və ya özünü elə aparır ki, guya axtarır". Markov əlavə edib ki, Moskva Ermənistandakı anti-Rusiya prosesinin daha da genişlənəcəyini ehtimal edir: "Rusiya rəhbərliyinin belə bir məntiqi var - biz bizə yaxşı münasibət bəsləyən ölkələrlə yaxşı münasibət qururuq. Və bu ölkələrin liderləri özünü başqa cür aparsa, Moskvada çoxlu suallar yaranır. Görürük ki, Ermənistanda 2008-ci il mart hadisələri ilə bağlı həbslər davam edir. Və həbs olunan insanlardan çoxu Rusiyameyillidir. Ancaq Paşinyan onları daxili siyasi rəqibləri kimi həbs edir. Ümumilikdə, düşünürəm ki, 2019-cu il sonuna kimi Rusiya - Ermənistan münasibətləri üçün çətin il olacaq, çünki Nikol Paşinyanın özünü necə aparacağı məlum deyil".

Məhz belə bir vaxtda Rusiya və Gürcüstan arasında razılaşma Ermənistana ötrülən qazın qiym'tinin daha da qalxmasına gətirib çıxara bilər. Söhbət Gürcüstan vasitəsilə Ermənistana ötrülən qazın tranzit qiymətinin artmasından gedir. Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natiya Turnava hökumətin Rusiya şirkəti "Qazprom"la Ermənistanda qaz ticarətinə dair sazişini şərh edərkən bildirib ki, 2019-cu ilin martında Gürcüstan Rusiya şirkəti "Qazprom"la Ermənistana bu ölkənin ərazisindən qazın tranzitinə dair saziş imzalayıb: "Tərəflər arasında hesablaşmalar vəsaitə keçirilib və yeni razılaşmaya əsasən tranzitin qiyməti bahalaşacaq. Bunun bizim üçün heç bir təhlükəsi yoxdur. Çünki bizim əsas təchizatçımız Azərbaycandır. Biz bu gün veb səhifəmizdə dərc olunan balansa nəzər yetirsək, 2,5 milyardlıq qaz bazarında olan qazın 95%-i Azərbaycana məxsusdur". O qeyd edib ki, Gürcüstan Azərbaycan qazını iki mənbədən alır - tranzit üçün kvota və SOCAR şirkətindən: "Bu qaz bizim strateji ehtiyacımızı (əhalinin və istilik elektrik stansiyasını) ödəməyə imkan verir. Bu seqmentin tamamilə Azərbaycan qazı ilə təmin olunmasına dair aydın zəmanətimiz var. Kommersiya seqmentinə gəldikdə isə, biz elektrik enerjisi və ya qazdan asılı olmayaraq, həmişə müəyyən rəqabətin olmasının tərəfdarıyıq". Onun sözlərinə görə, Rusiya qazı Gürcüstanın kommersiya bazarına çıxarılır. İndi gürcü tərəfi tranzit qiymətlərin yüksəlməsindən heç bir problem yaşamasa da, belə vəziyyətdə Ermənistana çatdırılan mavi yanacaq daha baha başa gələcək. Bunun xərclərini isə son nəticədə erməni tərəfi çəkməli olacaq. Məhz bu səbəbdən ermənilər üçün rus qazının daha da bahalaşması gözlənir. Bu isə zəif iqtisadiyyata malik Ermənistan üçün növbəti sarsıdıcı zərbə sayılır.

***Nahid SALAYEV***

**Uydurma və qondarma tarixlərinin atası hesab etdikləri, əslində Alban salnaməçisi olan Moisey Xorenatcinin (410-490) "Erməni tarixi" əsərinin saxtalaşdırılmasına görə hayların qəbilə-tayfa törəmələri Ayk (Hayk) nəsli Dəclə və Fərat çayları hövzələrində, Ermənistan dağlıq yaylası ərazilərində deyil, əslində Afrika qitəsinin şərqində - Həbəşistan dağlıq yaylası, Nil çayı hövzəsi, Qırmızı dənizin qərb sahillərinin daşlı-çınqıllı mağaraları və Nubiya səhrasının quraq vadilərində məskunlaşmış Tiqran, Tiqr, Tiqrau ibtidai insan sürülərinin törəmələri olub.**

**(IV məqalə)**

# Hay-tayfa və qəbilə icmasının etno-morfo genezisində qəsbkarlıq və qisasçılıq davramının yaranma amili

Belə ki, hay sürüsünün morfo və etnogenetik özəl xüsusiyyətləri sırasında (görünüş və davranış etibarı ilə) təbii şərait amillərinin təsiri nəticəsində formalaşan qisasçılıq, qəsbkarlıq, soyğunçuluq, qəddarlıq... hisslərinin onlara aid olan özəllikləri xüsusilə fərqlənir. Belə ki, eramızdan əvvəl I minillikdə həbəş döyüşçü dəstələrinin tərkibində yunan ordusu sırasında Troya müharibəsində hay "çarı" Zarmayr Aykazuninin başçılığı ilə iştirak edən hay sürüsünün silahlıları (Homerin "İlliada" poeması, II, 2,783; M.Xorenatsi "I Kitab, 19, 32) yerli müdafiəçilərə və dinc sakinlərə qarşı hansı vəhşilikləri törətmişdisə, XIX əsrin sonu - XX əsrin əvvəllərində və sonunda da müsəlman-türk dünyasına qarşı (istər Şərqi Anadoluda olsun, istərsə də tarixi Azərbaycan ərazilərində) eyni quldurluğu etdilər. Dinc sakinlərin qətliamı və soyqırım faciələrinin dəsti-xətti eynidir, aradan minilliklər keçsə də. Deməli, hay qəbilə-tayfa sürüsünün etno-morfogenetik və düşüncə tərzinin özəlliyinə təsir edən amillər onların şüur və həyat tərzi baxımından təkamülünə yox, əksinə, mağara-ibtidai sürü davranışının instinkt davranışının qorunmasına səbəb olub.

İrəvan Dövlət Universitetinin professoru Q.Q.Sevak (1904-1981) və rusiyalı akademik D.A.Olderoqqe (1903-1987) öz əsərlərində e.ə. X minillikdə (mezolit dövründə) hayların Afrikanın şərqindəki zənci qəbilələri (həm də Omo çayı hövzəsindəki suri, karo qəbilələri) ilə qarışıq irqə malik olmaları barədə məlumatlar verdiyindən, deməli həm irqi, həm də genetik irs baxımından təbii mühit elementlərinin hay qəbilə-tayfa sürüsünə tarixi bir neçə minilliyi əhatə edir. Hətta həmin alimlərin əsərlərində Həbəşistan dövlətinin əhalisinin yarıdan çoxunun etnogenezisində hay qəbilə-tayfa sürüsünün rolunun olduğu vurğulanır (eləcə də bax: A.Məlik-Simonyan "Həbəşistanda erməni koloniyası" məqaləsi, "Planet diaspora", aprel, 2000).

Yerli afrikalılarla hay sürüsünün etno-morfogenezisinin qohumluğu məsələsinə ingilis arxeoloqu E.Ueylendin tədqiqatlarında da yer verilib.

Həbəşistan dağlıq yaylasının sərt relyef-landşaft quruluşunun, tropik çay vadilərinin mağara-zağa düşərgələrinin yeknəsəqliyi, Nil çayı vadisinin təhlükəli sahillərinin fəsli dəyişikliyi, Qırmizi dəniz sahillərinin kəskin keçilməz quru-şoran örtüyü, Nubiya səhrasının dözülməz kontinentallığı, Omo çayı vadisənin cəngəllikləri hay sürüsündə ətraf mühitə qarşı vəhşilik və qəbilələrə yönəlik qisasçılıq hissinin yaranması ilə nəticələnib. Bu hiss və qəbilə-mağara yaşam tərzi uzun müddət sivil kollektiv yaşayış formasiyalarından uzaq olduğu üçün (bu cür tayfalar indi də mövcuddur) artıq bu "qabiliyyət" məhz onlara məxsus etnomorfoloji amil halını alıb, eləcə də ətraf aləmdən təcridolunma onların diləlifba üslubuna da təsir edib (baxmayar ki, əlifbaları̇nı da əski Həbəş və digər əlifbalar əsasında yaradıblar).

Ona görə də, hay qəbilə-tayfa sürüsünün şüur tərzinin formalaşmasına ətraf təbii mühit ünsürlərinin təsiri instinkt olub, onlarda insani-sivil düşünmə qabiliyyətinin zəif olması nəticəsində qeyri-təkamül mərhələsində təbii şəraitə uyğunlaşma, assimlyasiya prosesi gedib. Nəticədə bu ibtidai insan sürüsü sonrakı minilliklərdə həm təbiətdən, həm də onları əhatə edən insan cəmiyyətindən vəhşi, barbar yolla daha çox maddi və mənəvi irs əldə etmək instinktinə köklənib, bu istək artıq onların yaşam və həyat tərzinə çevrilib. Qeyri-sivil və vəhşi davranış tərzinə yiyələnən hay qəbilə-tayfa sürüsünün şüurundə sonrakı mərhələlərdə qisasçılıq, qəsbkarlıq və vəhşilik vərdişləri ilə yanaşı, təbii olaraq yalançılıq, saxtakarlıq, hiyləgərlik, riyakarlıq, xəyanətkarklıq...kimi qeyri-insani dəyərlərin yaranması ilə müşayiət olunub. Bir cəhəti də qeyd etmək lazımdır ki, yuxarıda sadalanan sürü davranış normaları haylarda məqsədlərinə çatmaq üçün istifadə edilən əlavə vərdişlərdir, həyat normalarıdır. Təəccüblü deyil ki, Şərqi Afrika təbiətinin kəskinliyi və sərtliyi yalnız hay tayfa sürüsünün şüurunda bu kimi izlər buraxıb. Bu, ilk növbədə, onların uzun əsrlər boyunca təcrid olunmuş şəkildə mağaralarda yaşaması və qisasçılıq hissinin güclü olması səbəbindən insan cəmiyyətinə yovuşmasını çətinləşdirib. Belə ki, Qırmızı dənizin sahillərində və Nubiya səhrasında mağaralarda, quru vadilərdə quru, isti iqlim, Viktoriya gölü sahillərində rütubətli-bataqlıq şəraiti fizioloji-bioloji quruluşca onları zənci irqinə yaxınlaşdırsa da, qisasçılıq hissi onları həmişə savaşmağa, müharibə aparmağa, vəhşicəsinə qan tökməyə sürükləyib, nəticədə hay qəbiləsi bütün dövrlərdə həm tayfalararası, həm də dövlətlərarası qanlı toqquşmaların mərkəzində olub. Misal üçün, Həbəşistanla qonşu olan Uqandada hay izləri 700 illik tarixə malikdir. Onların Həbəşistanın Tiqriniya ("çar" Tiqranın doğma ocağı) əyalətinin paytaxtı Aksum şəhərindən köçüb gəldikləri və qəbilələrarası vuruşmalarda iştirak etdikləri bildirilir.

Təbii ki, öz maraqlarına uyğun başqalarından nəyi isə əldə etmək instinkti onlarada güclü olduğu üçün.

Hay qəbilə-tayfa sürsündə qisasçılıq hissinin güclü olması həm də Şərqi Afrika təbiətinin kontinental iqlim şəraiti ilə sıx bağlıdır. Yəni quraq və isti, dözülməz iqlim şəraiti hay sürüsünün qidaya olan ehtiyacının ödənilməsi üçün çətinliklər yaratdığı kimi, əlverişli yaşayış mühitinin zəruriliyi uğrunda mübarizə instinktini də gücləndirib. Ona görə də onlar bu cür uyğun əraziləri axtarıb tapmaq zorunda qaldıqlarından, Şərqi Afrikadan Nil çayı hövzəsi boyunca, Ərəbistan yarımadası, Aralıq dənizinin şərq sahilləri, Dəclə və Fərat çaylarının yuxarı axarları, Kiçik Asiya və Balkan yarımadaları, Egey dənizi adalarını (Kipr və Krit də daxil olmaqla)... gəzib dolaşıb, ibtidai insan və qaraçı sürüləri formasında ayrı-ayrı ərazilərdə məskunlaşdıqlarından (e.ə. II-I minilliklərdə və eramızın I minilliyində) həmişə daimi ərazi və torpaq iddiaları (istəkləri) onlarda güclü olub. Təbii və sosial instinktlər - qisasçılıq, davakarlıq, zorla özgənin maddi və mənəvi irsinə yiyələnmək istəyi onlarda o qədər güclü olub ki, ("təbiət insanın özünü yaradır" fikri öz doğruluğunu bununla təsdiq edir) son minillikdə də bu vərdişlər, sivil cəmiyyətlər əhatəsində olsalar da, hay sürüsünün şüurundan silinməyib.



*"Zəngəzur və Arsak olmadan güclü coğrafi sütunlu Ermənistandan söhbət gedə bilməz". Q.Nijde (1886-1955, Azərbaycanlılara qarşı 1918-1920-ci illərdə törədilmiş soyqırım siyasətinin ideoloqu və icraçısı)*

Hay qəbilə-tayfa sürüsünün şüurunda, etno və morfo genetik irsində vəhşi təbiət çalarlarının olması, bunun dayanıqlı həyat və davranış tərzinə çevrilməsində Şərqi Afrika təbiətinin kəskin iqlim və relyef şəraiti həlledici rol oynayıb. Üstəlik, onlar irqi keçmişlərinin bu "Qara qitə" ilə əlaqəsini özləri də inkar etmir. Maraqlıdır ki, keçən əsrin 50-60-cı illərində Zimbabvedə, Kampala şəhəri yaxınlığındakı Luzira yüksəkliyində tapılan qədim insan kəlləsinin məhz erməni əcdadlarına, erməni qövmünə mənsub olduğunu (öz ulu əcdadlarını sübut etmək üçün) özləri böyük sevinclə bəyan ediblər. Və fəxrlə bildiriblər ki, bu kəllə sümüyü afrikalıların yox, erməniləri ulu əcdadlarına aiddir. Həmin kəllə sümüyünü sonradan yerli və Böyük Britaniyadan olan arxeoloqlar (uqandalı Tomas Skott, professor Lvanqa Luniqo, zimbabveli Mayk Nsimbi, ingilis Q.Katon-Tompson, E.Ueylend... və bir çoxları) müayinə etdikdən sonra bildiriblər ki... bu kəllə sümüyü Kipr adasından tapılan insan qalıqları ilə genetik bağlılığa malikdir.

Ingiltərəli arxeoloq Qertruda Katon-Tompson (1888-1985) 1928-1929-cu illərdə Zimbabve ərazisində aparılan arxeoloji tədqiqatları ilə bağlı 1931-ci ildə "Zimbabve mədəniyyəti" məqaləsini çar etdirib, uqandalı tarixçi Mixael Bazzebulala Nsimbi (1910-1994) arxeoloji tapıntıları ilə bu fərziyyələri nəzəri baxımdan əsaslandırıb. Əcəba, olmaya hay sürüsünün ulu əcdadları Kipr adasından gəlməimiş? Təbii ki, bu istiqamətdə tədqiqatların aparılması nəinki antropolgiya, arxeologiya, paleocoğrafiya elmləri üçün, eləcə də bizim tariximiz üçün zəruri və əhəmiyyətli ola bilər.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

**Ermənilər özlərini müxtəlif millətlərə, dövlətlərə peyvənd etməkdən nə usanırlar, nə də utanırlar. Onlar indi də özlərini qazaxlara "simsar" hesab edirlər.**

# Qazaxıstanla Ermənistanı bağlayan dil və tarix ortaqlıqları? - Türkdilli ölkənin yeni Prezidenti dilçi və tarixçiləri şoka saldı...

*"Necə ola bilər ki, bağlılıq olmadığı halda, Qazaxıstan Prezidenti belə bir fikir söyləsin?"*



"Ermənistanın səsi" nəşrinin yazdığına görə, Qazaxıstanın yeni seçilmiş Prezidenti Kasım-Jomart Tokayev bu ölkənin Baş naziri Nikol Paşinyanla telefon söhbətində Ermənistan və Qazaxıstan arasındakı münasibətlərdən bəhs edib. Sözügedən qəzetin yazdığına görə, guya Kasım-Jomart Tokayev Paşinyana deyib ki, ermənilərlə qazaxlar arasında tarix və dil birliyi mövcuddur (?).

Qazaxıstan Prezidentinin dilindən yayılan bu fikirlərin həqiqətən də onun tərəfindən səsləndirilib-səsləndirilməməsini deyə bilmərik. Amma erməni mediası onun belə bir fikir səsləndirdiyini qeyd edir.

Qazaxlarla ermənilər arasında dil və tarix baxımından nə kimi əlaqə, birlik ola bilər?

Ekspertlər bizimlə söhbətlərində bildirdilər ki, ümumiyyətlə, ermənilər və qazaxlar arasında nə dil, nə də tarix baxımından heç bir bağlılıq yoxdur. Qazax dili ilə erməni dili tamamilə fərqli dil ailəsinə, dil qrupuna aiddirlər. Dilçilər qeyd edirlər ki, qazax dili türk dillərinin qıpçaq altqrupuna daxildir, erməni dili isə hind-Avropa dilləri ailəsinə aiddir. Alimlər hesab edirlər ki, Qazaxıstan Prezidentinin belə bir fikir işlətməsi inandırıcı görünmür. Dövlət başçısının belə tarixi və siyasi səhvə yol verməsinin müsbət hal olmadığını deyən ekspertlər hesab edirlər ki, ola bilsin, Tokayev Ermənistan və Qazaxıstanın hazırkı əlaqələrindən danışıb, erməni mətbuatı isə onun fikirlərini təhrif edib.

**Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, professor Sayalı Sadıqova "Bakı-Xəbər"ə bildirdi ki, Tokayevin belə bir fikir işlətməsi inandırıcı görünmür.** S.Sadıqovanın sözlərinə görə, bir dövlət başçısının tarix və dil baxımından ermənilərlə qazaxların əlaqələrini qeyd etməsi şübhəli görünür. "Mən inanmıram ki, türk dövlətinin başçısı belə bir fikir işlətsin. Əgər işlədibsə, bu ciddi siyasi səhvdir. Erməni və qazax dillərinin heç bir yaxınlığı, əlaqəsi yoxdur. Qazax, qırğız, özbək, türkmən, azərbaycanlı və s. - biz hamımız türkük və dilimiz də türk dili ailəsinə aiddir. Bizim kökümüz birdir, biz bir kökdən rişələnmişik. Erməni dilinin türk dili ilə heç bir əlaqəsi yoxdur. Erməni dili hind-Avropa dillərinə aiddir. Ola bilsin, Tokayev deyib ki, Ermənistanla Qazaxıstanın siyasi, iqtisadi və s. əlaqələri olub, amma onun "qazaxlarla ermənilərin dil və tarix birliyi var" fikrini işlətməsi həqiqətəuyğun görünmür. Çünki nə tarixləri, nə də dilləri bir-birilə əlaqəlidir" - deyə S.Sadıqova bildirdi.

***Sayalı Sadıqova:** "Erməni və qazax dillərinin heç bir yaxınlığı, əlaqəsi yoxdur"*

***Vaqif Abışov:** "Qazaxlarla ermənilər-haylar arasında tarixi baxımdan heç yaxınlıq olmayıb"*

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktrotu Vaqif Abışov bizimlə söhbətində Ermənistan nəşrinin yaydığı xəbərdən şoka düşdüyünü qeyd etdi.** V.Abışovun sözlərinə görə, Tokayevin hansı əsaslarla belə bir fikir səsləndirməsi qəribə təsir bağışlayır. "Siz bu barədə mənə sual verərkən həqiqətən də təəccübləndim ki, erməni və qazax tarixi arasında nə kimi əlaqələr ola bilər? Bir neçə il əvvəl Qazaxıstanın rəsmi şəxslərindən olan bir xanım Ermənistanın Şirak rayonuna səfər etmişdi. Həmin rayonda hətta küçələrdən birinə Nursultan Nazarbayevin adının verilməsi məsələsi də gündəmə gətirilmişdi. Həmin səfər zamanı Matendarandan böyük bir lüğət çıxardılar. O lüğətin adının "erməni qıpçaq" lüğəti olduğu deyilirdi. Yəni bu kimi hallar baş verib. Bu da yaxın iki ilə aid məsələdir. Amma qazaxlarla ermənilər-haylar arasında tarixi baxımdan heç yaxınlıq olmayıb. Bu barədə heç bir tarixi sənəddə, materialda işarə belə yoxdur. Mən ermənilərlə qazaxlar arasında hansısa bir tarixi yaxınlığın olduğunu birinci dəfədir eşidirəm. Bilirsiniz ki, Qazaxıstanın sabiq prezidenti Nursultan Nazarbayev həmişə ermənilərin təcavüzkar, məkrli siyasətini ciddi tənqid edib və bir türk dövlət başçısı kimi həmişə Azərbaycanın yanında olub. Bütün beynəlxalq tədbirlərdə, hətta BMT Təhlükəsizlik Şurasının iclaslarında da o, Azərbaycanın haqq işini müdafiə edib, Ermənistan Prezidentini oyundan kənar vəziyyətdə qoyub. Yəni Nursultan Nazarbayevin ermənilərə münasibəti məlum idi. Ancaq indiki Qazaxıstan Prezidentinin mövqeyi mənə məlum deyil. Mən bilmirəm ki, o həqiqətən də belə fikir işlədibmi? O, bunu nəyə əsasən deyib, hansı faktlara söykənib, bilmirəm. Bu məsələ çox qaranlıqdır. Ümumiyyətlə, haylarla qazaxların tarixi baxımdan heç bir əlaqəsi yoxdur. Onların hər hansı bir bağlılığı yoxdur. Necə ola bilər ki, bağlılıq olmadığı halda, Qazaxıstan Prezidenti belə bir fikir söyləsin? Bu çox təəccüblü və maraqlıdır" - deyə V.Abışov bildirdi.

*İradə SARIYEVA*

---

**Ermənistan Baş naziri Nikol Paşinyan deyib ki, Rusiya Prezidenti Vladimir Putinlə Sankt-Peterburqda keçirilən Beynəlxalq İqtisadi Forum çərçivəsində baş tutan görüşdə tərəflər yeni silahların tədarükü məsələsini müzakirə ediblər. Onun sözlərinə görə, İrəvan və Moskvada artıq "hansısa razılıqlar" var.**

# Putinlə qaz söhbəti alınmayan Paşinyan "yeni silahlardan" danışmağa başlayıb...

***Azad İsazadə:** "Paşinyan müasir silah alışı ilə bağlı süni şəkildə fon yaradır"*



Paşinyanın fikrincə, tərəflər arasında Qarabağ məsələsi müzakirə olunmasa da, silahlanma ilə bağlı razılıq var. O xüsusilə hərbi-texniki sahədə əməkdaşlığın yaxşı vəziyyətinə diqqət çəkib və iki ölkə arasında bu sənaye sahəsində əlaqələrin bərabər inkişaf etdiyini bildirib. Jurnalistlərin yeni "İsgəndər-M" raketlərinin Ermənistana tədarükü ilə bağlı sualını cavablandıran Paşinyan deyib ki, respublikada bu komplekslər kifayət qədərdir: "Ancaq biz başqa şeyə ümid edirik. Böyük bir şeyə".

Mayın əvvəlində məlum olub ki, Ermənistan Rusiyadan modernləşdirilmiş Su-30SM qırıcılarını almağa başlayıb. Ermənistan Baş naziri o zaman deyib ki, təyyarələrin tədarükü hər kəsə məlum faktdır, ancaq o, alınan digər silahlarla bağlı heç bir məlumat verməyib. Fevralda isə ölkənin müdafiə naziri David Tonoyan bəyan edib ki, 100 milyon dollarlıq kredit reallaşdıqdan sonra Ermənistan yeni silahlar almaq üçün Rusiyadan növbəti kredit almaq niyyətindədir. Bu kredit 2017-ci ildə üç il müddətinə verilib və Ermənistan bu borcu 2022-ci ilədək ödəməlidir.

Erməni mətbuatı yazır ki, guya Ermənistanın Rusiyadan nə almaq istədiyi hələ məlum deyil, ancaq bəyanat özü artıq əhəmiyyətli bir mesajı daşıyır.

Paşinyanın silahlanma ilə bağlı iddialı danışması, əslində, onun növbəti blefidir. O bununla ictimaiyyəti aldatmağa çalışır. Əvvəla ona görə ki, Rusiya hakimiyyətinin hazırkı Ermənistan rəhbərliyi ilə münasibətləri yaxşı deyil. Digər tərəfdən, Ermənistanın mövcud iqtisadi imkanları Paşinyanın iddia etdiyi silahları almaq gücündə deyil.

O baxımdan bütün bunları ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən hərbi ekspert Azad İsazadənin sözlərinə görə, Paşinyanın yeni silahlarla bağlı dedikləri şişirdilmiş məlumatdır:** "Paşinyan müasir silah alışı ilə bağlı süni şəkildə fon yaradır. Məsələ ondadır ki, nə cür müasir silah olsa da, Ermənistanın onu almaq imkanı yoxdur. Ermənistan silah alırsa, bunu Rusiyadan alınan kredit hesabına reallaşdırır. Rusiya ermənilərə kredit verir, sonra həmin krediti onların əlindən alır. Tutaq ki, Paşinyanın dediyi kimi, Ermənistan Rusiyadan vacib silah aldı, bununla nəsə dəyişirmi? Dünya bazarında istənilən müasir silah komplekslərini Azərbaycan ala bilir və alır da. Düzdür, Rusiyadan silah alanda bu bizə bir qədər baha başa gəlir, amma Azərbaycanın buna imkanı var. Azərbaycanın bir sıra parametrlərə görə "İsgəndər-M" raketlərindən üstün raketləri var. Paşinyan, sadəcə, bu kimi açıqlamalar verməklə təbliğat məqsədi güdür. İctimaiyyəti sakitləşdirməyə çalışır. İctimaiyyət fərqindədir ki, Ermənistanın iqtisadi imkanları müasir silah komplekslərini almaq gücündə deyil. Belə olan halda, Paşinyan kimi aldadır?! Ermənistanda ictimai vəziyyət qeyri-sabitdir. Ona görə də Paşinyan periodik olaraq piar xarakterli addımlar atır ki, ölkədə ictimai proseslər ona qarşı çevrilməsin. Bir məqamı da qeyd edim ki, Ermənistanla Rusiya arasında silah ticarəti ilə bağlı hansısa razılaşma imzalanırsa, silahların bu ölkəyə çatdırılması bir neçə il çəkir. Razılaşmanın həyata keçirilməsi bəzən iki-üç il çəkir. İstənilən halda, Ermənistan silahlanma yarışında Azərbaycanla rəqabət apara bilməyəcək. Elə silahlar var ki, Azərbaycan onları nümayiş etdirmir".

*"Ölkə ictimaiyyəti fərqindədir ki, Ermənistanın iqtisadi imkanları müasir silah komplekslərini almaq gücündə deyil"*

*Vidadi ORDAHALLI*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Cəbhə təxribatlarının arxasında müharibəni körükləmək niyyəti - Ermənistandan qondarma "DQR"ə ilk maliyyə sanksiyası...

**İşğalçı ölkənin silahlı qüvvələrinin Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü ərəfəsində cəbhə xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla yeni təxribatlar törətməsi Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə olan ümidlərin üzərindən xətt çəkməkdədir. Çünki cəbhədə vəziyyət faktiki olaraq kəskinləşir və işğalçı ölkə artıq təxribatlarını gizlətmir də.**

Elə əsgər Elşən Xəlilovun şəhid edilməsi əmrinin şəxsən Ermənistanın müdafiə naziri David Tonoyan tərəfindən verilməsi və bunun "Facebook"da "qürurla" bəyan edilməsi də artıq düşmənin sülh prosesində o qədər də maraqlı tərəf qismində çıxış etmədiyini əyani surətdə təsdiqləyir.

Xatırladaq ki, Ermənistanın Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsrun Ovannisyan "Facebook" səhifəsində qeyd olunan xüsusda bildirib: "Müdafiə naziri David Tonoyan öldürülmüş hərbi qulluqçu Sipan Melkonyanın "qisasını" alan hərbi qulluqçularımıza yüksək mükafatı təqdim etdi. Tapşırıq yüksək səviyyədə yerinə yetirilib". Məhz bu faktın özü Ermənistanın sülh danışıqlarına qarşı çıxdığını bir daha nümayiş etdirir. Azərbaycan Xarici İşlər Nazirliyi artıq məsələyə sərt reaksiya verib, baş verənlərə görə tam məsuliyyəti Ermənistan və bu ölkənin rəhbərliyi üzərində olduğunu bildirib. Rəsmi Bakının da qeyd etdiyi kimi, Ermənistan danışıqlar prosesini pozmaq və mövcud status-kvonu saxlamaq məqsədilə cəbhədə hərbi eskalasiyanı kəskinləşdirir. Məsələ burasındadır ki, son Vyana görüşündə Ermənistanın danışıqları uzatmaq cəhdi olan planları alt-üst edildi. Bu, növbəti təmaslarda işğalçının konstruktiv danışıqlar aparmaqdan başqa heç bir yolunun olmadığı deməkdir. XİN rəhbərlərinin gözlənilən görüşündə real nəticələri olacaq müzakirələr gözlənir və məhz bunun qarşısını almaq məqsədilə işğalçı ölkə cəbhədə təxribatlara əl atır. Hədəf Azərbaycanı müharibəyə təhrik etmək, hərbi eskalasiyanı kəskinləşdirmək və danışıqlar prosesini hazırda konkret nəticələri olacaq səviyyəsindən "sıfır" həddinə endirməkdir. Təbii ki, Azərbaycan bununla razılaşmaq niyyətində deyil. Hesab edilir ki, yaranmış durumda ATƏT-in Minsk Qrupuna həmsədrlik edən ölkələr lazımi reaksiyalar verməsə, yeni Qarabağ savaşı qaçılmaz olacaq. Bu zaman Ermənistanın üzləşdiyi böyük zərbələrə görə yeganə məsuliyyət daşıyan tərəf də məhz İrəvan özü və onun hamiləri olacaq.

Ermənistan "1-in.am" saytı da qeyd edir ki, əslində, Azərbaycan savaşa başlamağa tam hazırdır və ordusundakı hərəkətlilik də buna işarədir. Qeyd olunur ki, bu prosesdə Türkiyə Azərbaycanın yanında yer almağa hazır olduğunu nümayiş etdirsə də, Ermənistanın yanında kimsənin yer alacağı böyük şübhə doğurur: "Azərbaycan və müttəfiqi Türkiyə öz silahlı gücləri arasında müxtəlif formatlarda tədris təlimləri təşkil edərək ikitərəfli hərbi-siyasi münasibətləri dərinləşdirməkdədir. Bu isə ölkənin "Bir millət, iki dövlət" çağırışını rəhbər tutaraq strateji müttəfiq olduqları sirr deyil, amma Ermənistanın şərq və qərb qonşuları son zamanlar daha yüksək hərbi fəallıq göstərir. Və xüsusən də bu hadisələr Ermənistan sərhədinin cəmi bir neçə kilometrliyində baş verirsə, təbii, bu, İrəvanda narahatlıq doğurmaya bilməz. Türkiyə və Azərbaycan son bir ayda sayca ikinci hərbi təlim keçirib - bu dəfə Naxçıvan Muxtar Respublikasının ərazisində.

Türkiyə və Azərbaycanın müdafiə idarələrinin məlumat verdiyi kimi, Naxçıvanda iyunun 7-dən 11-dək keçirilən "Sarsılmaz qardaşlıq-2019" birgə taktiki təlimləri döyüş atışının məşqinə hədəflənib. Keçən dəfə mayın 1-dən 3-nə qədərki Türkiyə-Azərbaycan taktiki təlimlərinin adı "Mustafa Kamal Atatürk-2019" idi. Əlbəttə, bölgədə savaş, xüsusən Ermənistanda daxili-siyasi sabitsizlik təhlükəsinin meydana çıxması əlamətləri işığında Azərbaycan və Türkiyənin Ermənistan sərhədində bu hərbi fəallığını ciddi narahatlıqla qarşılamaq lazımdır. Hərb işinin bəzi mütəxəssisləri Ermənistan tərəfinə, Ermənistan Silahlı Qüvvələrinin komandanlığına Azərbaycanın bu hərəkətlərinə böyük diqqət ayırmaq və istənilən inkişafa hazır olmağı məsləhət görür. Məsələn, Baş Qərargah rəisi və müdafiə naziri postlarını tutmuş erməni generalı Norat Ter-Qriqoryants bunda ciddi təhlükələr görərək deyir ki, Azərbaycan savaşa başlamaq üçün uyğun məqam axtarır. Ter-Qriqoryants istisna etmir ki, Azərbaycan tərəfi təlim görüntüsü altında ağır hərbi texnikanı sonrakı hücum əməliyyatları üçün sərhədlərə yaxınlaşdıra bilər. Rusiya hərbi eksperti Aleksandr Xramçixin Türkiyə və Azərbaycanın son zamanlar niyə belə tez-tez hərbi təlimlər keçirməsi barədə bildirir: "Aydındır ki, onlar hərbi əməkdaşlığı möhkəmləndirir, ola bilsin, bunu hansısa konkret təcəssüm ala biləcəyi hesabı ilə ciddi möhkəmləndiririlər. Əslini desək, hərbi təlimlər daha nəyə görə keçirilir? Məhz bunun üçün. İzləyə bildiyim qədər, bu iki ölkə ssenari üzrə azdan-çoxdan gerçək təlimlər keçirir, yəni onlar terrorizmlə mübarizəni məşq etmirlər. Ancaq antiterror əməliyyatlarına hazırlaşsaydılar, onda eybi yox idi, deməli, təlim mərasimvari-siyasi xarakter daşıyardı. Bu təlimlər isə azdan-çoxdan həqiqidir. Təlimlər Azərbaycan-Türkiyə formatında keçirilirsə, onda aydındır ki, onlar üçün təsəvvür edilən yeganə düşmən Ermənistandır. Ermənistanda daxili qarışıqlıq baş versə, bu, savaşı tətikləyə bilər. Bu günlərdə İrəvan və Xankəndi arasında münasibətlərin soyuması baş verir və bu da savaşı tezləşdirə bilər. Bu fərziyyə də mövcudluq hüququna malikdir ki, təlimlər görüntüsü altında səfərbərlik tədbirləri keçirmək olar. Örnək kimi 1973-cü ilin oktyabr Ərəb-İsrail savaşını tarixi analogiya göstərə bilərəm. Misirlilər hücuma qədər ardıcıl hərbi təlimlər keçiriblər, amma bundan sonra qoşunların tərxisi baş verməyib. Yəni onlar gizli ümumi səfərbərlik aparıb və qoşunları gizlicə Süveyş kanalının yanında yerləşdiriblər. Və bundan sonra oktyabrın 6-da çox uğurla hücuma keçiblər".

Beləliklə, erməni mediası və ekspertlərinin yuxarıda qeyd edilən bu fikirlərindən aydın görünür ki, Azərbaycanın hərbi əməliyyatlara başlamasının mümkünlüyü düşmən ölkədə böyük təşviş yaradır. Amma belə məlum olur ki, işğalçı ölkənin hakimiyyəti bunu nəzərə almaq istəmir. Əks təqdirdə, Paşinyan iqtidarı bilərəkdən cəbhə təxribatlarına getməzdi. Erməni mediası yazır ki, əslində, Paşinyan daxili ziddiyyətlərdən və "Qarabağ klanı"nın ölkədə artan sosial narazılıqdan istifadə edib ona qarşı çıxmasından ehtiyat edərək cəbhə təxribatları ilə diqqəti yayındırmaq istəyir. Amma burada xatırlatmaq lazım gəlir ki, eyni taktikadan sabiq prezident Serj Sarkisyan da istifadə etməyə çalışıb, lakin bu hal onun hakimiyyətdən devrilməsinin qarşısını ala bilməyib. Bu mənada, Paşinyanın baş verənlərdən lazımi dərs çıxarması zəruri sayılır. Əks təqdirdə, onu da Sarkisyanın taleyi gözləyir.

Digər tərəfdən ekspertlər burada bir məqama da diqqət yönəldir ki, Qarabağ münaqişəsinin davam etdirilməsi Ermənistan üçün getdikcə baha başa gəlir. İrəvanın iqtisadi gücü indiki Qarabağ siyasətini davam etdirməyə imkan vermir. Məhz bu şəraitdə erməni mediasında iddialar səslənir ki, Paşinyan iqtidarı Qarabağdakı separatçı rejimi Azərbaycanla döyüş meydanında yalqız buraxmağı da düşünür. Son zamanlar Ermənistan rəhbərliyinin Qarabağ separatçılarına qarşı kəskin münasibətinin kökündə həm də bu məqamın dayandığı qeyd olunur. Belə bir vaxtda artıq o da bəlli olub ki, Ermənistan separatçı "DQR"in maliyyə yardımları xahişlərini rədd edir. Ermənistanın "Politik" nəşri qeyd edir ki, Paşinyan hökuməti separatçılara maliyyə dəstəyinin verilməsi üçün qondarma rejimin "təhlükəsizlik şurasının katibi" Vitali Balasanyanın istefası şərtini irəli sürüb. Separatçıların maliyyə xahişləri artıq iki aydır İrəvan tərəfindən rədd edilir. Nəşrin mənbələri bildirir ki, bu, Ermənistan tərəfindən "DQR"ə ilk sanksiya hadisəsidir. Separatçı rejimin rəhbəri daha əvvəl Vitali Balasanyanla görüşüb, Paşinyanın istefa tələbini ona çatdırıb. Bu həm də onu göstərir ki, Ermənistanda Paşinyan hakimiyyəti ilə separatçıların mübarizəsi qızışır. Nikol Paşinyan isə, Balasanyan da daxil olmaqla, separatçı rejimin hərbi rəhbərliyini Azərbaycan və Ermənistan arasında yeni müharibənin alovlandırılmasına görə ittiham edib. Separatçıların maliyyə yardımının kəsilməsi isə böhranı daha da dərinləşdirib. Mümkündür ki, Paşinyanın komandasının separatçılara maliyyə yardımını verməməsi iki hədəfə hesablanıb: birincisi, Paşinyanın istəmədiyi şəxslər istefaya göndəriləcək, ikincisi, Qarabağdakı ermənilər iqtisadi çətinliyə görə rejimə etiraz edəcək. Əsas məqsəd keçmiş hakimiyyətə yaxın olan separatçı rejimin rəhbərliyinin təmizlənməsidir. Lakin bu situasiya Azərbaycanın da əlini gücləndirə bilər. Çünki Qarabağdakı ermənilər nə qədər iqtisadi çətinliklə qarşılaşsalar, bu onlar üçün Azərbaycanı daha cəzbedici edəcək. Bu, rəsmi Bakının Qarabağa Azərbaycanın tərkibində muxtariyyətin verilməsi və oradakı ermənilərin Azərbaycan vətəndaşı olaraq daha yaxşı yaşaması təklifinin qəbul edilməsi ilə nəticələnə bilər. Hər halda, Qarabağın yaratdığı iqtisadi yükdən azad olmaq üçün Paşinyanın bu versiyanı düşünməsi istisna deyil. İkincisi isə, yuxarıda qeyd olunduğu kimi, İrəvan mümkün döyüş əməliiyyatları zamanı separatçı rejimi yalnız buraxmağı da düşünür. Çünki bu şəraitdə Azərbaycanın daha qısa müddətdə Qarabağ münaqişəsini həll edib başa çatdırıcağı İrəvana bəllidir.

Ona görə iddialar da səslənir ki, cəbhə təxribatları törətməklə İrəvan Bakını savaşa başlamağa təhrik etmək istəyir. Ermənistan hakimiyyəti bu zaman separatçı rejimə kömək imitasiyası edib reallıqda prosesə seyrçi qalmağa üstünlük verəcək. Nəticədə isə Qarabağ münaqişəsi qısa müddətdə həllini tapacaq və erməni cəmiyyəti üçün bu problem tam aktuallığını itirəcək. Məhz bundan sonra işğalçı ölkənin varlığını davam etdirməsi mümkün sayılır. Hər halda, hadisələrin hansı səpkidə inkişaf edəcəyi yaxın tezlikdə bəlli olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Digər sferalarla yanaşı, bu gün Rusiyanın iqtisadi müstəvidə Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirməyə can atması aydın müşahidə olunur. Rusiya mərkəzi hakimiyyəti, eləcə də onun ayrı-ayrı regionları son dövrlərdə bu istiqamətdə xüsusi fəallıq nümayiş etdirir.**

# Azərbaycan Rusiya bazarlarında bəzi məhsullar üzrə Çinin dominantlığına son qoyacaq




Elə bunun nəticəsidir ki, iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinə xidmət edən yeni razılıqlar əldə olunur, qarşılıqlı ticarət dövriyyəsinin həcmi genişlənir.

İndilikdə isə belə bəlli olur ki, Rusiya Azərbaycandan daha çox məhsul alınmasında maraqlıdır. Bu isə qeyri-neft sektoru üzrə Azərbaycana əlavə imkanlar qazandırır. Çünki Rusiya Azərbaycandan əsas etibarı ilə məhz qeyri-neft sektoru üzrə istehsal edilən məhsullar, o cümlədən ərzaq məmulatları alır. Rusiyanın iqtisadi İnkişaf naziri Maksim Oreşkin də vurğulayır ki, ölkəsi Azərbaycandan ərzaq məhsulları idxalını artırmaq niyyətindədir. Nazir hazırda Azərbaycandan ərzaq məhsulları tədarükünün artım tempinin yaxşı səviyyədə olduğunu bildirib. M.Oreşkinin sözlərinə görə, mövcud vəziyyətə əsasən, Rusiya bazarında Türkiyə və Çin məhsulları üstünlük təşkil edir. Nazir əlavə edib ki, Rusiya tərəfi Azərbaycan məhsullarının Rusiya bazarlarına hansı həcmdə tədarükünün mümkün olduğunu göstərməkistəyir. Hesab edilir ki, bu baş tutarsa, Azərbaycan məhsulları Rusiya bazarlarında Türkiyə və Çin məhsullarını sıxışdıra bilər. Maksim Oreşkin onu da bildirib ki, Azərbaycanla Rusiya arasında çox səmərəli iqtisadi münasibətlər bərqərar olub, hazırda qarşıya müxtəlif sahələrdə çoxşaxəli layihələr həyata keçirmək vəzifəsi qoyulub: "Təqribən ilyarım əvvəl köklü dönüş əldə olunub. Bütün əlaqələrimizi, problemlərin həlli mexanizmlərini yenidən qurduq, nəticədə ticarət dövriyyəmiz sürətlə artır. Bu müsbət meyli daim gücləndirəcəyik. Hazırda qarşıya qoyulan vəzifə müxtəlif sahələrdə çoxşaxəli layihələr həyata keçirməkdir ki, qüvvələrimizi bu istiqamətə yönəldəcəyik".

Xatırladaq ki, Azərbaycanın ərzaq məhsulları, xüsusən də kənd təsərrüfatında istehsal edilən məhsullar keyfiyyətinə görə Türkiyə və Çini çox geridə qoyur. Azərbaycan tərəfi isə məhsulların hazırlanması, logistikası və emalını təmin etməyə, onların vaxtında Rusiya bazarına çıxarılması üçün bütün lazımi addımları atmağa hazır olduğunu bəyan edir. Moskva vilayətinin kənd təsərrüfatı və ərzaq məhsulları naziri Andrey Razin də vurğulayır ki, Azərbaycan məhsullarına Rusiya bazarında böyük maraq var: "Bir qrup insan Rusiyada məhz Azərbaycan məhsullarına üstünlük verir. Bu planda iki ölkə arasında ticarət dövriyyəsi artmaqdadır. Buna həm də nəqliyyat koridorlarının artması və körpünün inşası təkan verir". O qeyd edib ki, Rusiya üçün Azərbaycan bazarı maraqlı olduğu kimi, Azərbaycan vasitəsilə açılan digər ölkələrin bazarları da cəlbedicidir. Azərbaycan məhsullarının Moskva vilayətində kifayət qədər təqdim olunması ilə bağlı sualı cavablandıran nazir qeyd edib ki, məhsullar yetərincədir: "Tələb olunan məhsullar içərisində üstünlük meyvə-tərəvəzə verilir. Bu, Azərbaycan məhsullarının ilk öncə keyfiyyətcə tanınmasıdır. Tələb var, təklif isə artmalıdır. Azərbaycan Rusiya məhsullarının dünya bazarına çıxmasında da böyük rol oynayır. Belə ki, Azərbaycan vasitəsilə Rusiya istehsalının İrana, oradan da Hindistana kimi yayılma imkanı var. Bu baxımdan Azərbaycan Rusiya üçün nəqliyyat-loqistika məkanına çevrilə bilər. Bu isə iki ölkə arasında ticariyyət dövriyyəsinin son dərəcə artımına səbəb olacaq".

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov da ikitərəfli iqtisadi əməkdaşlıqdan razı qaldıqlarını bildirib: "Əlaqələrimiz sabit şəkildə inkişaf edir. Buna heç bir şübhə yoxdur. Dostluq ab-havası var. Bütün istiqamətlərdə irəliləyirik". Səfir bildirib ki, ticarət ikitərəfli əməkdaşlığın əsas sahələrindən biridir: "Rusiya statistikasına əsasən, bu ilin yanvar-mart aylarında ölkələrimiz arasında ticarət dövriyyəsi yarım milyard dolları keçib. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 10 faiz çoxdur. Müqayisədə üçün onu da deyim ki, keçən il ticarət dövriyyəsi 2 milyard 400 milyon dollar təşkil edib. Bu rəqəm də 2017-ci ilin göstəricisindən 13 faiz çoxdur. Ticarətimiz qeyri-neft sektoru üzərində qurulub. Bura kənd təsərrüfatı, maşınqayırma və sair daxildir".

Qeyd edək ki, Rusiya tərəfindən QAZ markalı avtomobillərin üçüncü ölkələrə ixracı üçün bünövrə olaraq qəbul edilən Hacıqabul Sənaye Məhəlləsindəki sözügedən müəssisəyə 14 milyon manat həcmində sərmayə yatırılması nəzərdə tutulub. Həmin müəssisədə "GAZel Next", "GAZel Business" yüngül tutumlu, "GAZon Next" orta tutumlu yük avtomobilləri yığılacaq.

Burada bir məsələni də qeyd edək ki, perspektivdə Rusiya ticarət dövriyyəsinin artımı fonunda Azərbaycanla hesablaşmaları milli valyutalar üzərindən aparmağı düşünür. Rusiyanın "Sberbank" bankının rəhbəri German Qref də bunu mümkün sayır və qeyd edir ki, Rusiya ilə Azərbaycanın ticarət əməliyyatlarındakı hesablaşmaları milli valyutalara keçirmək mümkündür: "Məncə, bu çox düzgün addım olardı. Hərçənd, çox tez həyata keçirilə bilməz, bunun üçün müvafiq infrastruktur yaradılmalıdır. Özü də söhbət təkcə ödəniş sistemindən getmir, onu tez bir zamanda dəyişdirmək olar, əsas məsələ ortaya çıxan valyuta risqlərinin sığortası, yəni hedcinqi, bu risqləri bazar vasitələri ilə sığorta etmək imkanı yaradan maliyyə alətlər bazarıdır. **Amma istiqamət çox düzgün götürülüb və sözsüz ki, gələcəkdə bunlarda iştirak edəcəyik. Fikrimcə, bunun üçün beş il vaxt lazım gələcək". Hazırda iki ölkə arasındakı bəzi mal növlərinin dövriyyəsi ilə bağlı qarşılıqlı hesablaşmalar milli valyutalarda aparılır.**

*Tahir TAĞIYEV*

# Əhali artımına xidmət edən struktur layihələr - xaricilər daha bir Azərbaycan nümunəsi barədə eşitdilər

**Azərbaycanda əhalinin sayının artması ilə əlaqədar müvafiq infrastruktur layihələrinin həyata keçirilməsinə böyük önəm verilir. Bu fikirləri Prezident İlham Əliyev Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyerın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən səsləndirib.**



## *Tahir Mirkişili: "Əhalinin sayı artdıqca, su xətləri, elektrikləşdirmə genişləndirilir, yeni-yeni yaşayış kompleksləri salınır"*

Dövlət başçısı "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edərək, bu tədbirin beynəlxalq əməkdaşlıq baxımından önəmini vurğulayıb. Bakının qədim tarixi ənənələrə malik olduğunu deyən ölkə başçısı bununla bərabər paytaxtımızın sürətlə inkişaf etdiyini və müasir infrastrukturun yaradıldığını qeyd edib. O hazırda ölkəmizin xarici turistlər üçün cəlbedici məkana çevrildiyini qeyd edərək qonaqların sayının durmadan artdığını bildirib.

Beynəlxalq Memarlar İttifaqının prezidenti T.Vonyer Bakıya gələn hər bir qonaqda buradakı inkişaf proseslərinin, tarixi və müasir tikililərin dərin təəssürat hissi doğurduğunu qeyd edib. O, Bakının beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin və infrastruktura qoyulan investisiyaların paytaxtımızın inkişafına böyük töhfə verdiyini vurğulayıb.

Maraqlıdır, əhalinin sayının artması ilə əlaqədar müvafiq infrastruktur layihələrinin həyata keçirilməsi deyilərkən, söhbət bu sahədə hansı layihələrdən gedir? Ekspertlər bunu necə dəyərləndirirlər?

**Sözügedən məsələyə aydınlıq gətirən millət vəkili Tahir Mirkişili bununla bağlı bir sıra məqamlara toxundu:** "Burada söhbət əhaliyə göstərilən xidmət sahəsində bir sıra kompleks işlərin görülməsindən gedir. Müvafiq yeni infrastruktur layihələri həyata keçirilir. Söhbət ondan gedir ki, əhalinin sayı artdıqca, su xətləri, elektrikləşdirmə genişləndirilir, yeni-yeni yaşayış kompleksləri salınır. Hansı ki, həmin yaşayış kompleksləri salınarkən bütün məqamlar nəzərə alınır. Azərbaycanda bu yöndə görülən işlər kompleks şəkildə həyata keçirildiyi üçün, bu istiqamətdə aparılan bütün işlər bir-birini tamamlayır. Yaradılan bütün infrastruktur və şəhər idarəetməsi insanların sayına görə hesablanır. İnsanların sayı artdıqca, infrastruktur daha da inkişaf edir. Yeni-yeni yollar, körpülər, yeraltı və yerüstü keçidlər inşa edilir. Yeni qəsəbələr salınarkən orada lazım olan bütün zəruri infrastruktur yaradılır. Digər tərəfdən, ötən illər ərzində 3500 məktəb yenidən inşa edilib və yaxud da əsaslı təmir edilib. Həmçinin, mövud məktəblərin və səhiyyə xidmətlərinin potensialı artırılır. Çoxsaylı park və yollar salınıb. Bütün bunlar əhalinin artan sayı ilə düz mütənasiblik təşkil edir. Çünki bununla bağlı işlər planlı şəkildə həyata keçirildiyi üçün, hansısa problem yaşanmır".

*"Bununla bağlı işlər planlı şəkildə həyata keçirildiyi üçün, hansısa problem yaşanmır"*

***Vidadi ORDAHALLI***

# 1, 3 və 5 qəpiklər dövriyyədə olmasa nə baş verər ki...

**Bu gün supermarketlərdə istehlakçıların üzləşdiyi problemlərdən biri də alış-veriş edərkən xırda pul qalıqlarını ala bilməmələridir. İlk baxışdan gözə görünməyən məbləği ala bilməmək bir müddət sonra alıcıların narazılıqlarına səbəb olur.**



## *Natiq Cəfərli: "1 və 3 qəpiklərin dövriyyədən çıxarılması..."*

## *Eyyub Hüseynov: "Xırda nominallı pulların dövriyyəsində böyük problem var"*

Hətta bu qəpiklərə ictimai nəqliyyatda sürücülər də yaxın durmurlar. Onları "Bakıkart"a vurub metrolarda istifadə edə bilmirik. Bu cür qəpiklərdən yalnız böyük marketlərdə istifadə etmək mümkündür. Bu səbəbdən də 1-3-5 qəpiklərin dövriyyədən çıxarılması təklif olunur.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, xırda nominallı pulların dövriyyəsində böyük problem var:** "Bu məsələ o halda problem deyil ki, kassir həmin qəpiyi versin, müştəri götürməsin və ya onlar bunu öz aralarında həll etsin. Amma digər hallarda bu, istehlakçının hüququnun pozulması və aldadılmasıdır. Düşünürəm ki, bunu edən marketlər istehlakçı hüququnu pozan marketlərdir. Belə halda, istehlakçı öz hüququnu müdafiə etmək üçün aidiyyəti qurumlara müraciət edə bilər".

**İqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, 1 və 3 qəpiyədək pulların istehsalına son qoyulmalıdır:** "Məlumdur ki, 2015-ci ildə iki dəfə devalvasiya hadisəsi baş verdi. Devalvasiyadan sonra belə bir şərait yaranıb ki, bu pulların istehsalına çəkilən xərclər həmin pullardan daha bahadır. Buna görə də xırda pullarla bağlı məsələyə birdəfəlik aydınlıq gətirmək lazımdır. Ümumiyyətlə, 10 qəpiyə qədər olan nominal qəpiklər dövriyyədən çıxarılmalı və onların istehsalına əlavə xərc çəkilməsinə ehtiyac yaranmamalıdır. Buna görə də 1 və 3 qəpiklərin, ümumiyyətlə, dövriyyədə qalmasının bir mənası yoxdur, onları dövriyyədən çıxararaq istehsalına çəkilən xərcin azaldılmasında yarar var. Marketlər həmin qəpikləri vermədikləri halda, müştərilərin o qəpikləri istəməkdən utanmağını anlamaq mümkündür. Amma, praktiki olaraq, o qəpiklərin işlənməsi mümkünsüz hala gəlib. Ümumilikdə, bu məsələnin həlli ilə bağlı birdəfəlik Mərkəzi Bankın yanaşması olmalıdır. 1 və 3 qəpiklərin dövriyyədən çıxarılması iqtisadi nöqteyi-nəzərdən daha məntiqəuyğundur".

***Günel CƏLİLOVA***

# Azərbaycanda nikahdankənar doğulan uşaqların sayı azalıb

**Azərbaycanda rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı azalıb.**

"Trend"in məlumatına görə, ötən il Azərbaycanda rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən 20 716 uşaq dünyaya gətirilib. Bu rəqəm 2017-ci ildə 22 796, 2016-cı ildə 26 288, 2015-ci ildə 24 038, 2014-cü ildə 25 486 olub.

Son 5 ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən ən çox uşaq 2016-cı ildə doğulub. Həmin ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən dünyaya gətirilən uşaqların sayı bütün diri doğulanların 16,5 faizini təşkil edib.

2018-ci ildə isə nikahsız qadınlar tərəfindən doğulan uşaqların sayı ölkədə bütün diri doğulan uşaqların 14,9 faizini təşkil edib ki, bu göstərici də 2014-cü il üzrə eynilik təşkil edib. 2014-cü ildə nikahda olmayan qadınlar tərəfindən 25 486 uşaq dünyaya gətirilib ki, onun 14,9 faizini rəsmi nikahı olmayan qadınların dünyaya gətirdiyi uşaqlar təşkil edib.

Nikahsız qadınların dünyaya gətirdiyi uşaqlar daha çox kənd yerlərində dünyaya göz açıb.

2013-cü ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların 10 892 nəfəri şəhər, 14 177 nəfəri kənd, 2014-cü ildə 9772 nəfəri şəhər, 15 714 nəfəri kənd, 2015-ci ildə 9411 nəfəri şəhər, 14 627 nəfəri kənd, 2016-cı ildə 9592 nəfəri şəhər, 16 696 nəfəri kənd, 2017-ci ildə 8167 nəfəri şəhər, 14 629 nəfəri kənd yerlərinin payına düşüb.

2018-ci ildə isə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən şəhər yerlərində 7509, kənd yerlərində 13 207 uşaq dünyaya gətirilib.

BAKI XƏBƏR 12
12 iyun 2019
№ 102 (4000)



"DəmirBank"ın bir qrup əməkdaşı və Emil Muradov adlı şəxs rastlaşdığı problemin ictimailəşdirilməsi üçün "Bakı-Xəbər" qəzetindən kömək istəyiblər. Onlar şikayətlərində iddia edirlər ki, "Atəşgah Həyat" sığorta şirkətinin vətəndaşlara qarşı "qurduğu tələyə" düşüblər. "Atəşgah Həyat" şirkətinin təqdim etdiyi "Həyatın Yığım Sığortası" məhsulunun ilk qurbanları olduqlarını deyən şəxslərlə əlaqə yaradaraq üzləşdikləri məsələni aydınlaşdırmağa çalışdıq.

# Köhnə "DəmirBank"ın bir qrup işçisinin "Atəşgah sığorta" ilə qalmaqallı problemi başlayıb




Məlum oldu ki, sözügedən qrup əməkdaşlar (30 nəfərdən çox) "Atəşgah Həyat" sığorta şirkəti tərəfindən təqdim edilən "Həyatın Yığım Sığortası" adlı məhsuldan faydalanmağa çalışarkən hazırda olduqca çətin duruma salınıblar. Əməkdaşların vergi və sosial ödənişlərdən azad olunan və əməkhaqqları hesabına toplanmış vəsaiti "Atəşgah Həyat" sığorta şirkətinin müxtəlif banklarda yerləşdirilən hesablarında saxlanıb. Həmçinin, bu vəsait əsasında işçilər aylıq xərclərini qarşılamaq üçün "DəmirBank"dan ayrılmış kreditlərdən faydalanmışlar: "Məlum olduğu kimi, "Həyatın Yığım Sığortası" məhsulunun mahiyyəti vətəndaş həlak olduğu halda onun sığorta hesabına yönəltdiyi vəsaitin ən yaxın qohumuna ödənilməsindən ibarətdir. Digər sözlə desək, ailəsini düşünən ailə başçısı öz həyatını sığortalayaraq, öz ölümü hadisəsi baş verdikdə övladlarının və ailə üzvlərinin xərclərini qarşılamaq məqsədilə bu sığorta məhsulundan istifadə edir. Lakin "Həyatın Yığım Sığortası" ilə həlak olduğu halda ailə üzvlərinin durumunu düzəltmək niyyətində olan vətəndaşlara toplanan əməkhaqqı vəsaitləri müqavilə müddəti bitdikdə nəinki verilməyəcək, hətta bank tərəfindən vətəndaşların yaşayışı üçün ayrılan kreditlər geri alınacaq.

Buna səbəb isə "Atəşgah Həyat" sığorta şirkətinin rəhbərliyi və "DəmirBank" ASC rəhbərliyi tərəfindən razılaşmaya daxil edilmiş bənddir. Bu bənd vətəndaşın iş yeri ("DəmirBank") iflas olduğu halda "Atəşgah Həyat" sığorta şirkətini vəsaiti qaytarmaq öhdəliyindən azad edir. Digər sözlə desək, sığorta şirkəti öz maliyyə risqini tam və bütövlüklə adi vətəndaşın üzərinə atır. Nəticədə vətəndaşların irimiqyaslı kreditləri (əməkhaqqı əvəzinə ayrılan vəsaitlər) keçmiş "DəmirBank"ın ləğvedicisi olan "Əmanətlərin Sığortalanması Fondu" tərəfindən müqavilə vaxtı çatanda geri alınacaq, işçilərin əməkhaqları isə əmanət vəsaitləri olaraq "Atəşgah Həyat" Sığorta şirkətinin hesabında qalacaq və başqalarının gəlirinə çevriləcək".

Şikayətçilərin sözlərinə görə, bu qaranlıq sxem "Atəşgah Həyat" sığorta şirkəti tərəfindən artıq neçə ildir istifadə edilir və heç nədən xəbəri olmayan vətəndaşları dəhşətli problemlərlə üz-üzə qoyur. Fəaliyyəti dayandırılan "DəmirBank" əməkdaşlarının bəziləri bu bəndin müqavilədə olduğu haqda, digərləri isə müqaviləyə əlavə edilən şəhadətnamədə olduğu haqda məlumat verir: "Bu və ya digər ifadələrdən istifadə edilərək bəndi müqaviləyə daxil edən "Atəşgah" açıq-aşkar maliyyə risqini vətəndaşların çiyninə atır və vətəndaşları çox iri kredit ödənişləri ilə qarşı-qarşıya qoyaraq vətəndaşların aciz durumundan, iş yerini itirməsindən və acınacaqlı maliyyə vəziyyətindən böyük mənfəət əldə edir".

Yaranmış problemlə bağlı məhkəməyə müraciət edərək dəhşətli bəndin ləğv edilməsini tələb edən və aciz durumda qalan vətəndaşlar ədalət tapmayaraq çıxılmaz vəziyyətdə Azərbaycan Respublikasının Ali Məhkəməsinə üz tutublar.

Məsələyə aydınlıq gətirmək üçün "Atəşgah Həyat" sığorta şirkəti ilə əlaqə saxladıq. "Qaynar xətt" vasitəsilə bizi bir neçə şəxslə birləşdirdilər. Lakin onlardan hər biri bu suala cavab vermək səlahiyyətində olmadıqlarını bildirdilər. Sonda danışdığımız, lakin özünü təqdim etmək istəməyən şirkət rəsmisi bildirdi ki, artıq bu məsələ hüquq müstəvisində araşdırıldığı üçün, hansısa əlavə şərh verməyə ehtiyac duymurlar: "Bununla bağlı son sözü məhkəmə deyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

Vergilər Nazirliyi vergi sistemində şəffaflığın təmin olunması, korrupsiya və mənimsəmə hallarına qarşı mübarizənin aparılması istiqamətində tədbirləri davam etdirir. Bir müddət əvvəl Vergilər Nazirliyi Baş Prokurorluqla birlikdə bir sıra ərazi vergilər idarələrinin fəaliyyətlərinin yoxlanması zamanı aşkar edilmiş qanun pozuntularına dair məlumat yayaraq, bu pozuntulara yol vermiş vergi əməkdaşları barədə cinayət işinin açıldığını bildirmişdi.

# Vergilər Nazirliyi öz strukturları daxilində korrupsionerlərlə mübarizəyə dair məlumat açıqladı




Məlumata görə, nazirliyin daxili strukturlarında aparılan yoxlamalar zamanı ayrı-ayrı vergi əməkdaşlarının dövlət büdcəsinə çatmalı olan məbləğləri mənimsədiklərinə dair faktlar müəyyən edilmişdi.

Aparılan yoxlamaların məqsədi yerli maliyyə şöbələrindən daxil olmuş vergi və dövlət rüsumlarına dair ödəniş sənədlərinin düzgün işlənib-işlənməməsini araşdırmaq olub. Araşdırmalar zamanı bir sıra vergi əməkdaşları tərəfindən ödəniş məbləğlərinin ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə qeyd edilməklə sonunculardan nağd şəkildə alınıb mənimsəndiyi müəyyən edilib. Vergilər Nazirliyi mənimsəməyə yol vermiş əməkdaşların vergi xidmətində fəaliyyətinə xitam verib, eyni zamanda aşkar olunmuş faktları toplayaraq, hüquqi qiymət verilməsi üçün Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinə göndərilib. Qeyd olunmalıdır ki, bu, vergi orqanlarının hüquq-mühafizə orqanlarına təqdim etdiyi ilk hal deyil. Təkcə 2018-ci il və 2019-cu ilin 1-ci rübündə korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində 24 nəfər barədə 14 material hüquq-mühafizə orqanlarına təqdim edilib.

Vergilər Nazirliyinin Daxili təhlükəsizlik departamentinin baş direktoru Cavanşir Nuriyev bildirib ki, nazirlik öz fəaliyyətində şəffaflığın təmin edilməsinə ciddi önəm verir. Vergilər Nazirliyinin struktur vahid və bölmələrinin fəaliyyətində yol veriləcək nöqsan və çatışmazlıqların vaxtında müəyyənləşdirilməsi üçün təhlillər, daxili audit və xidməti araşdırmalar aparılır. Bu proses daim davam edir və vergi xidməti əməkdaşlarının fəaliyyətinin effektivliyinə, qanunvericiliyə uyğun icrasına nəzarət olunur. Aşkar edilmiş hallar müxtəlif xarakterlidir və yalnız rüşvətalma faktları ilə məhdudlaşmır. Bəzi hallarda vergi əməkdaşlarının himayəçilik etməsi, yaxud vergidən yayınmaq üçün ayrı-ayrı şəxslərə kömək etməsi, bəzən maraq toqquşmasına yol verilməsi və vergi qanunvericiliyinin tələblərinin düzgün tətbiq olunmaması nəticəsində yaranmış risqlərlə bağlı hallar qeydə alınıb. 2018-ci il və 2019-cu ilin 1-ci rübü ərzində yerli vergi strukturlarında aparılmış kompleks audit tədbirləri zamanı aşkar edilmiş müxtəlif faktlar üzrə 34 nəfərin vergi orqanlarında fəaliyyətinə xitam verilib, 11 əməkdaş vəzifədən kənarlaşdırılıb. C.Nuriyevin sözlərinə görə, bu kimi halların məhz nazirliyin təşəbbüsü ilə aparılan yoxlamalar çərçivəsində aşkar olunması vergi orqanlarının öz fəaliyyətində şəffaflığı təmin etmək istəyini ən bariz şəkildə nümayiş etdirir.

Beləliklə, Vergilər Nazirliyi öz sıralarını qanunazidd əməllərə yol verən əməkdaşlardan təmizləyəcəyinə dair vədlərinin icrasını davam etdirir.

Nazirlikdən bildiriblər ki, qurum bundan sonra da elan etdiyi şəffaflıq prinsiplərinə sadiq qalacaq, daxili strukturlarının və vergi xidməti əməkdaşlarının fəaliyyətini nəzarətdə saxlamaqla korrupsiya və mənimsəmə hallarına qarşı ən sərt tədbirlər görəcək.

***Baki-xeber.com***

**Maliyyə Bazarlarına Nəzarət Palatası bu ilin yanvar-aprel aylarında Azərbaycanın sığorta bazarının nəticələrini açıqlayıb. Belə ki, cari il ərzində Azərbaycandakı 21 sığorta şirkətinin xətti ilə 265,297 milyon manat məbləğində sığorta haqqı toplanıb.**

# Bu ilin dörd ayında sığorta yığımı 12 faiz azalıb - niyə...




*"Sığorta yığımının azalması daha çox könüllü sığorta növündə müşahidə olunur"*

## *Əli Əlirzayev: "Gəlir azaldığı üçün insanlar sığorta xidmətlərindən imtina edirlər"*

Qeyd edək ki, sadalanan rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 12% azdır. Xatırladaq ki, yanvar-mart aylarının yekununda sığorta bazarında 4,2% artım qeydə alınıb.

4 ay ərzində sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 66,651 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 15,1% azdır.

2019-cu ilin yanvar-aprel aylarında sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 25,1 manatı ödəniş edilib. 2018-ci ilin müvafiq dövründə bu göstərici 26 manat olub.

Ötən illə müqayisədə sığorta yığımlarının azalmasının səbəbini öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

**İqtisadçı-ekspert Əli Əlirzayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, sığorta bazarı ötən illə müqayisədə zəifləyib.** Ümumiyyətlə, 2019-cu il sığorta sektoru üçün ağır ildir: "Ən böyük göstərici həyat sığortasında baş verir və verəcək. Çünki fiziki şəxslərin gəlir vergisinin sıfırlanması və sosial ödənişlərin 10 faiz olması, üstəgəl, 500 manata qədər sığortalanmaya icazə verilməsi və 300 milyondan çox olan həyat sığortasının azalmasının sığorta sektorunda daralmaya gətirib çıxarması qaçılmazdır. Əlavə olaraq lizinqin qadağası, avtomobil idxalında rüsumun artırılması, könüllü sığortanın bahalaşmasının qaçılmaz olması bu sahənin inkişafının ləngiməsinə gətirib çıxaracaq amillərdəndir".

Həmsöhbətimiz onu da vurğuladı ki, stimullaşdırıcı amillər isə icbari tibbi sığortaya ayrılan maliyyə və aqrar sığortanın inkişafına yönələn hərəkətlər də bu sektorun növbəti il üçün aşağı göstəricilərinin qarşısını ala bilməyəcək.

Ə.Əlirzayevin sözlərinə görə, sığorta yığımının azalması daha çox könüllü sığorta növündə müşahidə olunur.

Ekspert hesab edir ki, sığorta yığımının azalması gəlirlərin azalması ilə bağlıdır. Gəlir azaldığı üçün insanlar sığorta xidmətlərindən imtina edirlər. İdxal olunan avtomobillərin sayı kəskin azaldığından, avtomobil sığortasında əvvəlki illərə nisbətən çox ciddi azalma var. Son dövrlərdə icbari sığorta ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. Amma bu da tam arzuolunan səviyyədə deyil.

***Günel CƏLİLOVA***

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**BAĞIROV RUSLAN HÜSEYNQULU oğlu**



11 mart 1956-cı ildə Azərbaycan Respublikasının Şuşa rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şuşa rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Şuşa özünümüdafiə dəstəsinə qoşulmuşdur. Hərbçi. Bağırov Ruslan Hüseynqulu oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 8 may 1992-ci ildə Şuşa rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Ruslan Hüseynqulu oğlu 8 may 1992-ci il tarixində Şuşa rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Ruslan Hüseynqulu oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV SABİR TEYYUB oğlu**



20 aprel 1970-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Suraxanı rayonunda yaşamışdır. Suraxanı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Sabir Teyyub oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 24 sentyabr 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Sabir Teyyub oğlu 24 sentyabr 1992-ci il tarixində Ağdam rayonunun Abdal Gülablı kəndi ərazisində Uzundərə aslanan yerdə erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Sabir Teyyub oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV TƏHMƏZ QƏHRƏMAN oğlu**



18 dekabr 1971-ci ildə Azərbaycan Respublikası Gədəbəy rayonunun Nərimankənd kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Xətai rayonunda yaşamışdır. Xətai RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Təhməz Qəhrəman oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 2 avqust 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Təhməz Qəhrəman oğlu 2 avqust 1992-ci il tarixində Ağdərə rayonunun Kasapet (indi Çıraqlı) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Təhməz Qəhrəman oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV VÜQAR NOVRUZ oğlu**

17 may 1973-cü ildə Azərbaycan Respublikasının Zəngilan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Zəngilan rayonunun Mincivan qəsəbəsində yaşamışdır. Zəngilan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Vüqar Novruz oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata



keçirilən döyüş əməliyyatları zamanı 23 avqust 1993-cü ildə Cəbrayıl rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Vüqar Novruz oğlu 23 avqust 1993-cü il tarixində Cəbrayıl rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Vüqar Novruz oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Elektron ticarətin inkişafına poçtlar əsaslı töhfə verə bilər

**İnformasiya texnologiyalarının və internetdən istifadənin sürətli inkişafı ilə dünyada yeni bir iqtisadi nizam yaranmaqdadır. Bu nizamın yaranması ilə coğrafi sərhədlər aradan qalxıb, satıcı ilə alıcının görüşdüyü yer olan bazarlar fərqli bir ölçü qazanıb və satıcılar bütün dünyadan müştəri qəbul edə biləcəkləri kommersiya fəaliyyətlərini web bazalı sistemlərə köçürüblər.**

Cəmiyyətin bütün seqmentlərində, gündəlik həyatın hər sahəsində kompüterdən istifadənin dövrün gərəyi olduğu şüuru meydana gəlib. Beləliklə də bu iki əhəmiyyətli məqam, iqtisadi inkişafın və ictimai rifahın təmin edilməsində elektron ticarətə strateji bir əhəmiyyət qazandırıb.

Ölkələrarası ictimai və ticarət əlaqələrin inkişaf edərək qloballaşdığı bir dövrdə ünsiyyətdə sürət qaçılmaz bir ehtiyac halını alıb. İnformasiya texnologiyaları və bu sektordakı inkişaflar sözügedən ehtiyacı qarşılayacaq həll yolları tapıb. İnformasiya texnologiyalarının inkişaf prosesinə paralel olaraq, iqtisadi fəaliyyətlərin xarakteri də köklü şəkildə dəyişməkdədir.

E-ticarəti bu qədər diqqət mərkəzində saxlayan elementlər şirkətlə hədəf kütləsi arasındakı birbaşa əlaqənin təmin edilməsi, marketoloqlara istədikləri məlumatları təqdim etməsi, sürətli və ucuz olması və bütün bunların elektron mühitdə olması sayıla bilər. Digər müsbət elementlər arasında isə çatdırılmada asanlıq və ucuzluq, dərhal geri qaytarma, qlobal bazarlara çıxış imkanı, 24 saat xidmət və dərhal satış yer alır.

Elektron ticarətdən istifadənin artırılmasında dünya ölkələrinin poçt operatorları da bir sıra yeniliklər etməkdədir. Bunlara misal olaraq, Belarus dövlətinin təyin olunmuş poçt operatoru "Belpoçt" elektron ticarətin müasir dövrdə vacib xidmət növü olduğunu nəzərə alaraq, "Standard", "E-commerce MAX", "Standard +", "Elite" xidmət paketləri üzrə 10% endirim və 3 ay ərzində istifadə imkanı təqdim edir. Bu paketlərə 30 kq-a qədər sifarişlərin çatdırılmasının müxtəlif növləri, "E-commerce MAX" xidmət paketində isə fiziki ağırlığı məhdudlaşdırmadan malların daşınması və onlayn mağazaların ehtiyaclarına əsasən digər xidmətlər daxildir. "Belpoçta"nın əsas vəzifəsi elektron ticarət sifarişlərinin Belarusda istənilən yerə və operativ çatdırılmasını, bu cür məhsulların daşınması və çatdırılması zamanı müştərilərin məmnuniyyətini tam təmin etməkdir.

Lixtenşteyn poçt xidməti öz şöbələrində kriptovalyutaların satışı və mübadiləsi xidmətlərinin təqdimatına başlandığını elan edib. Fevral ayından başlayaraq arzu edən hərkəs paytaxt şöbələrindən hər hansı birində bitcoin ala və şəxsi pul kisəsi əldə edə bilər. Gələcəkdə mübadilə xidmətlərini ölkənin bütün poçt şöbələrində tətbiq etmək, eyni zamanda əlçatan sikkələrin siyahısına efirium (ETH), ripl (XRP), latkoin (LTC) və bitkoin keş (BCH) sikkələrini daxil etmək planlaşdırılır. Virtual valyuta ilə ticarətə başlamaq məqsədilə, Lixtenşteyn poçt xidməti İsveçrənin "Vardex Suisse AG" adlı tənzimlənən maliyyə şirkəti ilə əməkdaşlığa başlyıb. Bu təşəbbüsün təşkilatçılarının sözlərinə görə, kripto-mübadilə pul mübadiləsi biznesinin başqa növlərindən heç nə ilə fərqlənmir.

Bir çox ölkələr isə coğrafi şəraiti, istifadəçilərin mövcud tələblərini nəzərə alaraq, pilotsuz uçuş aparatları - dronlar vasitəsilə poçtun daşınmasına başlamışlar. Məsələn, Türkiyənin İstanbul şəhərindən Adalar istiqamətinə yükün sürətlə çatdırılması tələb olunursa, bunu etmək mümkündür. İstanbuldakı tıxaclar nəzərə alınarsa, 2 saatlıq yolu dronla yarım saatda qət etmək olar. Yaponiyanın "Japan Post" poçt operatoru Fukisima prefekturasında əməkdaş çatışmazlığı ilə əlaqədar olaraq sənədləri pilotsuz uçan aparatlarla çatdırmağa başlayıb. Poçt operatoru sənədlərin çatdırılması üçün dronların sınaqlarına keçən ilin sonundan başlayıb. Ötən ilin son günlərində Minamisoma və Nami şəhərləri arasında yeni illə bağlı yazılan açıqcaları 9 km məsafədə dronlar çatdırıb. Uçuş müddəti 15 dəqiqə təşkil edib. Hazırda şirkət poçt dronlarından müntəzəm istifadə etmək niyyətindədir. "Japan Post" saatda 54 km sürətlə hərəkət etməklə 2 kq ağırlığında yük daşıya bilən dronlardan istifadə edəcək. Əvvəlcə operator poçt və reklam bukletlərini çatdırmağı, gələcəkdə isə sənədlərlə işləməyi planlaşdırır.

Dünya təcrübəsində tətbiq olunan yeniliklərdən və poçt sisteminin elektron ticarətin inkişafına təkan verən ən əhəmiyyətli xidmətlərdən biri də "fullfilment" xidmətidir. Bu xidmət vasitəsilə istənilən elektron ticarət şirkəti poçtun çeşidlənməsi və daşınması mərkəzində yer icarəyə götürərək, sifarişlərin vaxt itirmədən bir başa müştəriyə çatdırılmasını təmin edir. Xidmətin tətbiqi nəticəsində elektron ticarət sifarişlərinin çatdırılma vaxtının qısaldılmasına və dəyərinin azaldımasına gətirib çıxarır.

Ümumdünya Poçt İttifaqının 2016-cı ildə İstanbul şəhərində keçirilmiş konqresində əməliyyat effektivliyini və elektron ticarətin poçt sistemində inkişafını artırmaq üçün hər bir regionun prioritetləri və ehtiyaclarını dəstəkləməklə regional inkişaf planlarının həyata keçirilməsi (E-Ticarətin mövcudluğu (ORE)) - Xidmət Keyfiyyətinin Təkmilləşdirilməsi Proqramı üzrə üzv ölkələrə 2017-2020-ci illəri əhatə edən fəaliyyət planı və yol xəritəsinin tərtib olunması öhdəliyi qoyulmuş və bu istiqamətdə ölkəmizin poçt Administrasiyası tərəfindən müvafiq işlər görülməkdədir.

Son illər Azərbaycanda elektron ticarətin həcmi ildən-ilə artır ki, bu da iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, telekommunikasiya infrastrukturunun modernləşdirilməsi, eləcə də bank və poçt sektorunda elektron xidmətlərin səviyyəsinin genişləndirilməsi hesabına baş verir. Bu baxımdan Azərbaycan Respublikasının Poçt Administrasiyası olan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və ölkənin bütün yaşayış məntəqələrini əhatə edən ən geniş poçt şəbəkəsinə malik milli poçt operatoru "Azərpoçt" MMC tərəfindən elektron ticarətin inkişafı istiqamətində bir sıra işlər görülməkdədir.



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü, Avropa İttifaqının və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının dəstəyi ilə Bakıda ilk "Bakı Elektron Ticarət Forumu 2018" adlanan Beynəlxalq Elektron Ticarət Forumu keçirilib. Forumda beynəlxalq təşkilatların, dövlət qurumlarının, ictimai təşkilatların nümayəndələri, mikro, kiçik və orta sahibkarlar, investorlar və startaplardan ibarət 300-dən çox yerli və xarici nümayəndə iştirak edib. Eyni zamanda, 20-dən çox ölkənin sahə üzrə mütəxəssisi, 10 beynəlxalq təşkilatın, 60-dan artıq e-ticarət və onlayn ödəniş platformalarının təmsilçiləri foruma qatılıb.

Tədbir zamanı Azərbaycanda elektron ticarət, elektron ödəniş və logistika xidmətləri, gömrük-vergi rüsumları, bu sahədə kiçik və orta sahibkarlığın inkişafı, elektron ticarət sahəsində startap layihələrinin genişləndirilməsi, həmçinin, bu sahənin müxtəlif aspektlərinin inkişafı ilə bağlı dövlət orqanlarının, beynəlxalq inkişaf agentliklərinin, biznes strukturlarının səmərəli əməkdaşlığı müzakirə olunub. Azərbaycanda və region ölkələrində elektron ticarətin inkişaf strategiyası, eyni zamanda Avropa İttifaqının müəyyən etdiyi tələblər strategiyası üzrə təkliflər irəli sürülüb.

Nəqliyyat, logistika və poçt infrastrukturunun təkmilləşdirilməsi hesabına bu gün Azərbaycan Tranzit Poçt Mərkəzinə (HUB) çevrilib. 2018-ci ilin 10 ayı ərzində "Azərpoçt" MMC üzərindən HUB-la 16 ölkəyə 4 mln 171 min 645 ədəd poçt göndərilib.

Poçt operatorları elektron ticarət sahəsində fiziki vasitəçi kimi alıcının internet üzərindən sifarişi əsasında xarici ölkədən poçt vasitəsilə gətirilən malın ölkə vətəndaşına çatdırılmasını, həmçinin, elektron ödənişlərin həyata keçirilməsini təmin edir. Göndərişlərin çatdırılma keyfiyyətini yüksəltmək məqsədilə "Azərpoçt" MMC tərəfindən artıq 2014-cü ildən "SMS-bildiriş" xidmətinin göstərilməsi təmin edilir. Daxil olan beynəlxalq poçt göndərişlərinin üzərində alıcıların telefon nömrəsi olduqda həmin nömrəyə operativ olaraq SMS-bildiriş göndərilir və bildirişdə vətəndaşın adına poçt göndərişinin daxil olması və göndərişi almaq üçün xidmət göstərən poçt şöbəsinə müraciət etməyin zəruriliyi barədə məlumat verilir. Bu xidmətin tətbiqi beynəlxalq kiçik paket və bağlamaların çatdırılmasını xeyli dərəcədə sürətləndirib. Elektron ticarətin inkişafı ilə əlaqədar müvafiq xarici ölkələrin internet mağazalarından göndərişlərin EMS (Express mail service) xətti ilə Azərbaycana göndərilməsini təşkil etmək məqsədilə Çin, Malayziya, Almaniya, Fransa və Niderlandın təyin olunmuş (milli) poçt operatorlarına ikitərəfli EMS mübadiləsinə dair müqavilə bağlanılması barədə "Azərpoçt" MMC tərəfindən müraciət edilmiş, Çin və Azərbaycan arasında EMS göndərişlərinin ikitərəfli mübadiləsinə dair müqavilə bağlanılmasına nail olunub, Çin və Malayziyadan bu barədə müsbət cavab alınıb və digər ölkələrlə də bu istiqamətdə danışıqlar davam etdirilir. Hazırda Estoniyanın "Eesti Post (Omniva)" SC şirkəti ilə elektron ticarət yüklərinin Almaniyadan Azərbaycana gətirilməsi və EMS şəbəkəsi vasitəsilə onların Rusiya Federasiyasına göndərilməsi barədə danışıqlar aparılır və yaxın günlərdə müqavilə bağlanacaq. Əlavə olaraq, Ümumdünya Poçt İttifaqının Xidmət Keyfiyyəti Fondunun "poçtun toplanması və çatdırılması" layihəsi çərçivəsində 40 ədəd moped, "Azərpoçt" MMC-nin daxili imkanları hesabına isə xeyli sayda avtomobil alınıb ki, bu nəqliyyat vasitələrinin köməyi ilə poçt göndərişlərinin çatdırılması vaxtı nəzərəçarpacaq dərəcədə artacaq. Bundan əlavə, "Azərekspresspoçt" Rabitə Müəssisəsinin əməkdaşlıq etdiyi yerli internet mağazalarının sayı günügündən artmaqdadır.

Qeyd etmək lazimdir ki, "Azərpoçt" MMC 1500 poçt şöbəsi vasitəsilə ucqar kənd yerlərində də istifadəçilərin elektron ticarətdən yararlana bilməsi üçün əlverişli şərait yaratmaqdadır. "Azərpoçt" MMC ucqar kənd yerlərində əhalinin elektron ödənişləri həyata keçirmələri üçün poçtalyonları ödəmə terminalları ilə təmin edib. "Azərpoçt" MMC-nin Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminə (AKİS) bütün poçt şöbələri qoşulmuş və poçt xidmətləri tam avtomatlaşdırılmaqla poçt, bank və maliyyə xidmətlərinin göstərilməsi daha geniş əhatə dairəsinə malik olub.

"Azərpoçt" MMC-nin beynəlxalq pul köçürmələri sistemi üzərindən poçt şöbələrində ödənişlər üç valyuta ilə yanaşı milli valyutada da (manatla) həyata keçirilir.

"Elektron imza", o cümlədən "ASAN imza" sertifikatlarının ölkələrarası qarşılıqlı tanınmasının təmin edilməsi və hüquqi bazanın təkmilləşdirilməsinin də elektron ticarətin inkişafında əhəmiyyəti böyükdür. Bu, istifadəçilərin identikləşdirilməsi və göndərişlərin təhlükəsizliyi ilə bağlı məsələlərin həllinə xidmət edir.

Bununla yanaşı, rabitə xidmətlərinin vahid və əlaqələndirilmiş formada, müasir innovativ texnologiyaların və metodların tətbiqi ilə vətəndaş məmnunluğuna nail olunmasını təmin edən "Şəbəkə" xidmət mərkəzləri işə salınmaqla maliyyə xidmətlərinin əlçatanlığının daha da artırılmasına nail olunub. "Şəbəkə" xidmət mərkəzinin yaxın gələcəkdə davamlı olaraq ölkənin digər şəhər və rayonlarında açılması istiqamətində müvafiq tədbirlər görülməkdədir.

Respublikamızda elektron ticarətin inkişafına təkan verən, Prezidentin 26 sentyabr 2018-ci il tarixli 508 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın "Elektron ticarət infrastrukturunun genişləndirilməsi" yarımbəndinin icrasını təmin etmək məqsədi ilə də "Azərpoçt" MMC tərəfindən bir sıra işlər görülməkdədir. Belə ki,"Azərpoçt" MMC elektron ödənişlərin həyata keçirilməsi və ödəniş kartları bazarında fəaliyyətin təşkili üçün ödəniş kartlarının emissiyası sahəsində bank olmayan kredit təşkilatları və lombard fəaliyyəti ilə məşğul olan şirkətlərlə birgə əməkdaşlıq edir. Fəaliyyət çərçivəsində müxtəlif maliyyə təşkilatları ilə birgə adsız "co-brand" kartların emissiyasına başlanıb. Kart hesabları tam olaraq "İBAN" strukturlu kart hesablarına keçirilib. "Azərpoçt" MMC tərəfindən hüquqi şəxslərə və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin tələblərinə uyğun olaraq, "korporativ kart" adlı yeni kart məhsulu yaradılıb.

Poçt istifadəçilərinin bütün növ poçt göndərişlərinin daşınması və çatdırılması ilə bağlı qiymətlər və müddətlər barədə məlumatların rahat, poçt şöbəsinə getmədən mobil telefonlar vasitəsilə alınmasına, həmçinin poçt məntəqələri və poçt indekslərinin axtarılmasına, poçt şöbələrinin ünvanları və əlaqə vasitələri barədə məlumatların əldə edilməsinə xidmət edən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun dəstəyi ilə "POSTCAL" mobil əlavəsi (APP) istifadəyə verilib.

Dünyada bir çox ölkələrin poçt operatorlarının elektron ticarət platformaları mövcuddur. Bunlara misal olaraq, Türkiyənin Poçt və Teleqraf Agentliyinin (PTT) www.epttavm.com, "Belpoçt"un www.shop.belpost.by, Avstraliya poçtunun www.shop.auspost.com.au və s. göstərmək olar.

Bu baxımdan dünyada gedən tendensiyaya uyğun olaraq, "Azərpoçt" MMC PTT ilə birlikdə Türkiyə saytlarından istifadəçilərin online alış-veriş etmələrinə imkan verə biləcək elektron ticarət platformasının yaradılması istiqamətində müvafiq işlər görməkdədir. Bu platforma vasitəsilə malların sifariş olunması, online ödənişlərin edilməsi və çatdırılması mümkün olacaq. Həmçinin "Azərpoçt" MMC tərəfindən müxtəlif növlü məhsulların satışı, online ödənişlərin edilməsi və çatdırılması üçün müstəqil e-ticarət platformasını, elektron bankçılıq və e-cüzdan xidmətlərini müştərilərin istifadəsinə verəcək.

Poçt sistemində e-ticarət sifarişlərinin çatdırılması üçün tətbiq olunacaq yeniliklərdən biri də postamatların quraşdırılması xidmətidir. Postamat online mağazadan sifariş edilmiş malların çatdırılması üçün avtomatlaşdırılmış terminaldır. Bu terminal vasitəsilə Siz yaxınlığınızda yerləşən supermarketdə və ya alış-veriş mərkəzində yerləşdirilən postamatlardan sifarişlərinizi rahatlıqla növbədənkənar və kuryer gözləmədən əldə edə biləcəksiniz. Terminallardan istifadə müştərilərin 24/7 rejimində poçt xidmətlərindən istifadəsi üçün nəzərdə tutulur.

Elektron ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür. Elektron ticarətin təkmilləşdirilməsi dövlət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu gün müasir informasiya texnologiyalarının poçt sahəsində tətbiqi poçtun keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaradıb. Bütün dünyada olduğu kimi, Azərbaycan poçtunda da fiziki poçt xidmətlərinin inkişaf perspektivi birbaşa elektron ticarətlə bağlıdır. Sifarişin verilməsi və sifariş haqqının ödənilməsi internet üzərindən aparılsa da, sifariş olunmuş malın ünvana çatdırılması poçt vasitəsilə həyata keçirilir. Bu isə ənənəvi poçt xidmətlərinə olan tələbatın heç vaxt azalmayacağının və poçt sisteminin elektron ticarətin inkişafında rolunun əsas göstəricisidir.

***Azər MƏMMƏDRƏHİMOV***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı***

# AMEA-da ev bölgüsündən narazı qalanlara Akademiyanın cavabı...

**Məlum olduğu kimi, son günlər Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) bir sıra əməkdaşları AMEA tərəfindən həyata keçirilən mənzil bölgüsünün qeyri-şəffaf olduğunu iddia edirlər. AMEA-nın ev bölgüsündən narazı qalan əməkdaşları müxtəlif KİV-də Akademiya rəhbərliyinin ünvanına sərt ittihamlar səsləndirirlər.**

*"Yataqxanada qeydiyyatda olub yaşayan və adına otaq olub yaşamayan 107 ailə var"*

Onlar iddia edirlər ki, budəfəki mənzil bölgüsü ədalətli keçirilməyib və mənzillər evsizlərə deyil, əsasən evi olanlara verilib.

Bu məsələdə bir çox qanunsuzluğa yol verildiyini deyən AMEA əməkdaşlarının iddiasına bu qurumun mövqeyini öyrəndik. AMEA-dan "Bakı-Xəbər"ə verilən məlumatda bildirilir ki, son günlər bəzi əməkdaşlar rəhbər dövlət orqanlarına və mətbuata AMEA rəhbərliyinin ünvanına iftira dolu yazılar göndərərək, ictimai fikir gücündən istifadə etməklə öz qanunsuz əməllərini kölgədə saxlamaq və mənzil əldə etmək istəyirlər. "Həmin əməkdaşların belə davranışına cavab olaraq AMEA evi ola-ola mənzil əldə etmək istəyən şəxslərin siyahısını hazırlayıb".

AMEA-nı ədalətsiz mənzil bölgüsündə ittiham edən əməkdaşları isə qurum özü saxtakarlıqda ittiham edir.

AMEA-da mənzil bölgüsünün tam şəffaflıqla aparıldığını deyən Akademiyanın İşlər İdarəsindən verilən məlumata görə, bir neçə gündür ölkənin bəzi xəbər saytlarında, eləcə də sosial şəbəkələrdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) yataqxanasında məskunlaşan alimlər üçün nəzərdə tutulmuş yeni tikilidə mənzillərin bölgüsü məsələsi ətrafında müzakirələr yenidən gündəmə gəlib. "Baxmayaraq ki, mənzil bölgüsünün sosial ədalət prinsiplərinə riayət olunmaqla və tam şəffaflıqla aparılması haqqında Akademiya tərəfindən sübut və dəlillərə əsaslanmış açıqlamalar dəfələrlə verilib. Bir daha qeyd edirik ki, AMEA ilə "Evrostroy-S" MMC arasında Azərbaycan Milli Elmlər Akademiyasının Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi, 12 ünvanında yerləşən yataqxanasının ərazisində, yataqxanada yaşayan AMEA əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış evlərinin tikintisi barədə müqavilə 14 noyabr 2012-ci il tarixdə bağlanmışdır.

"Evrostroy-S" MMC ilə aparılan çoxsaylı görüşlər, gərgin söhbətlər və nəticədə tərəfimizdən Respublika Prokurorluğuna edilən müraciət sayəsində hazırkı vaxta qədər "Evrostroy-S" MMC tərəfindən AMEA-ya yataqxana ərazisində inşa edilən binadan 58 mənzil (onlardan 4 mənzil mansard hissəsindən) ayrılmışdır. "Evrostroy-S" MMC yataqxana ərazisində inşa edilən binalarda boş mənzillər qalmadığını bildirərək sonralar Bakı şəhərinin kənar hissələrindəki yaşayış məntəqələrində və Bakı şəhərinin digər ünvanlarında yeni inşa edilən binalardan da mənzillər ayırmışdır.

*"Akademiya tərəfindən sübut və dəlillərə əsaslanmış açıqlamalar dəfələrlə verilib"*



*"Yataqxanada yaşayan 71 AMEA əməkdaşından 45 ailənin və yataqxanada qeydiyyatı olub yaşamayan, elmi dərəcəsi olan 16 əməkdaşın mənzil almağa hüququ olduğu müəyyən edilib və onlara mənzil ayrılması..."*

Araşdırma zamanı məlum olmuşdur ki, yataqxanada qeydiyyatda olub yaşayan və adına otaq olub yaşamayan 107 ailə var. Onlardan 71 ailə AMEA-da işləyir, 36 ailə isə AMEA-da çalışmayanlardır. Bunlardan əlavə, AMEA-da işləyən 48 əməkdaşın ailəsinin də (onlardan 34-ü fəlsəfə doktoru, 1-i elmlər doktorudur) 20 ildən artıq müddətdir yataqxanada qeydiyyatda olduğu, lakin boş otaq olmadığına görə orada yaşamadıqları müəyyən edilmişdir. Yataqxanada yaşayan 71 AMEA əməkdaşından 45 ailənin və yataqxanada qeydiyyatı olub yaşamayan, elmi dərəcəsi olan 16 əməkdaşın mənzil almağa hüququ olduğu müəyyən edilmiş və onlara mənzil ayrılması barədə qərar qəbul edilmişdir. "Evrostroy-S" MMC tərəfindən Şərifzadə küçəsi, 12 ünvanında inşa edilən binadan ayrılmış mənzillərin azlığını nəzərə alaraq, əsasən elmi dərəcəsi olan əməkdaşlara Şərifzadə küçəsi, 12 ünvanda inşa edilən binadan, elmi dərəcəsi olmayan əməkdaşlara isə kənardakı ünvanlardan mənzillər verilmişdir. AMEA-nın inzibati binasında 06.10.2017-ci il tarixdə keçirilən yığıncaqda mənzil ayrılmış 61 nəfərə mənzillərin sənədləri və açarları təqdim olunmuşdur" - deyə AMEA-dan bildirilir.

*İradə SARIYEVA*

# Yaş salfetkaların uşaqlar üçün fəsadları var imiş...

**Yaşından asılı olmayaraq, bütün insanlar üçün salfetlər önəmlidir. Gündəlik yaşam zamanı insanı bir çox narahat vəziyyətlərdən çıxaran salfetlər, demək olar ki, hər kəsin çantasında mövcuddur.**



*"Körpələrin təmizliyində nəm salfetlərdən istifadə edilməməlidir"*

Müxtəlif formalı, qoxulu, dizaynlı olan bu salfetlərə tələbat o qədər artıb ki, istehsalçı firmalar bunu növlərə ayırmağa başlayır: körpə salfeti, yeniyetmə salfeti, gündəlik alkoqollu salfet, alkoqolsuz salfet, qoxulu, sərinləşdirici, əsəb sakitləşdirici və s. Təmizlik, xüsusən mikroblardan qorunmaq üçün istifadəsinin vacibliyini qeyd edən firmalar bu salfetlərin heç bir əks təsirindən söz açmırlar. Halbuki, böyüklərə belə təhlükəli olan bu salfetlərin uşaqlar üçün istehsal olunub satışa buraxılması heç də düzgün deyil.

**Nərmin Əliyeva:** *"Körpələrin dəri bişməcəsindən əziyyət çəkməsinin ilkin səbəbi də elə bu nəm salfetlərdir"*

Həkimlər bildirirlər ki, yaş salfetlər dəri üçün ziyanlıdır, xüsusilə də uşaqların yaş salfetlərdən istifadə etməsi onların sağlamlığına mənfi təsir edir.

**Dermatoloq Nərmin Əliyeva bildirdi ki, üzdə dəri problemlərindən əziyyət çəkən gənc xanımların 90%-i nəm salfetlə makiyaj təmizləyir.** Körpələrin dəri bişməcəsindən əziyyət çəkməsinin ilkin səbəbi də elə bu nəm salfetlərdir: "Hətta valideynin bu salfetlərlə əllərini silib körpəsinə toxunması belə körpə sağlamlığı üçün təhlükəlidir. İstər böyüklər, istərsə də uşaqlar üçün istehsal olunan nəm salfetlər olduqca çoxlu kimyəvi maddə saxlayırlar. Kim desə ki, uşaq salfetləri belə deyil, əmin olun, yalandır. Əvvəla sağlamlıq üçün zidd olmayan əşyaların tərkibi kimyəvi maddələrlə zəngin olmamalıdır. Salfetlər isə belə deyil. Nəm salfeti sıxdıqda yuyucu tozlu su damcıları çıxır. Eləcə də kasaya su doldurub nəm salfeti içərisində fırladın.

Kasadakı su köpüklənəcək. Körpələrin geyimləri, yataq dəstləri dəfələlə durulanır ki, yuyucu maddə qalıb allergik reaksiya verməsin. Digər tərəfdən, ana tərkibi yuyucu maddə ilə dolu olan salfeti körpəsi üçün istifadə edir. Bu cür ziddiyyət körpəni qoruya-qoruya təhlükəyə atmaq deməkdir".

Həmsöhbətimiz onu da vurğuladı ki, körpələrin təmizliyində nəm salfetlərdən istifadə edilməməlidir. Su və sabunla yuyulmalı olan bədənə bu cür kimyəvi maddələrlə zəngin olan salfetlər vurulmamalıdır. Bu salfetlər uşaqları öldürməz, amma sağlamlığına ciddi təsir göstərər: "Körpə dərisi çox həssasdır.

**Buna görə də yumaq əvəzinə, nəm salfetlər qətiyyən istifadə olunmamalıdır. Körpə üçün 1 qram kimyəvi maddə belə təhlükəlidir. Uşaqların təmizliyi üçün yaş salfetlər əvəzinə, islanmış pambıqdan istifadə edilməlidir".**

*Günel CƏLİLOVA*

№ 102 (4000) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

12 İYUN 2019-cu il

www.baki-xeber.com




## "Bakcell" uşaqlara internetdən təhlükəsiz istifadəni öyrədir

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti Azərbaycanın ilk FTTH provayderi olan ENGİNET şirkəti ilə birlikdə Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Bakı şəhərinin müxtəlif parklarında uşaqlar üçün təhlükəsiz internetdən istifadəyə həsr olunmuş aksiya təşkil edib.**

Tədbirlər "Təhlükəsiz İnternet" layihəsi çərçivəsində həyata keçirilib. Valideynlərə və uşaqlara internet mühitindəki zərərli məzmun, internetdən təhlükəsiz istifadə qaydaları və "Bakcell" və ENGİNET şirkətlərinin birgə hazırladıqları "Təhlükəsiz İnternet Paketi" barədə geniş məlumat verilib.

Qeyd edək ki, "Bakcell" tərəfindən bir neçə il bundan əvvəl istifadəyə verilmiş və artıq 4G şəbəkəsində də fəaliyyət göstərən "Təhlükəsiz İnternet Paketi" uşaqlar üçün internetdən təhlükəsiz istifadəni təmin edir. Bu internet paketləri və ENGİNET şirkətinin "İnternet Filtrasiya Xidməti" sayəsində "Bakcell" abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadəsini təmin edə və onları zərərli və arzuolunmaz məzmundan qoruya bilərlər.

"Təhlükəsiz İnternet" paketi haqqında daha ətraflı məlumat https://www.bakcell.com/az/internet-safe-internet səhifəsinə əks olunur.

## Elan

Abbasov Gülüşən Məhəmməd qızının adına, Bakı şəhəri, Xocalı küçəsi, ev 17, mənzil 90 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Yıldırım Azadə Azad qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Alı küçəsi, ev № 5, mənzil № 10 ünvanının RX № 0117842 HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Qurbanov Rəşid Əsgər oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən bağ sahəsinə verilmiş order itdiyi üçün etibarsız sayılır.

Pənahova Amalya Əliş qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi, ev 71, mənzil 67 ünvanının çıxarışı (qeydiyyat vəsiqəsi), Samux şəhərində yerləşən 0.08 ha torpaq sahəsinə 20.12.2011-ci il tarixdə verilmiş çıxarış (qeydiyyat nömrəsi 1511015619) və Samux rayonu Qaraağaclı (keçmiş Qırmızı Samux) kəndində yerləşən 5.0 ha icarəyə verilmiş kənd təsərrüfatlı təyinatlı torpaq sahəsinə 28.08.2012-ci il tarixdə verilmiş torpaq sahəsinin plan və ölçüsü (AN 401457) itdiyi üçün etibarsız sayılır.

## Ayının dilini dişləyərək özünü ölümdən qurtardı

**Rusiyanın Tuva vilayətində ayı hücumuna məruz qalmış şəxs canını qurtarmaq üçün heyvanın dilini dişləməli olub.**



"Sputnik Azərbaycan" TVK kanalına istinadən xəbər verir ki, hadisə dostları ilə meşələrdən birində görüşmüş yerli sakinin başına gəlib. Qeyd edilir ki, üç nəfər meşədə görüşərək orada tonqal qalayıb və yemək bişiriblər. Sonradan onlar ayrılaraq maral buynuzu toplamaq üçün fərqli istiqamətlərdə gediblər. Bu an onlardan biri ayıya rast gəlib. Kişinin heyvanı qorxutmaq üçün səs-küy saldığı, lakin buna baxmayaraq ayının hücum etdiyi bildirilir. Canını qurtarmaq üçün Tuva sakini ayının dilini dişləməli olub. Bundan sonra isə heyvan qaçıb.

Tezliklə, tuvalını dostları tapıb. Onu üz, baş, əl və qarın nahiyəsinin yaraları ilə xəstəxanaya çatdırıblar.

## Marsda şüurlu varlıq var?

**Ufoloqlar Marsda hələ də şüurlu varlıqların yaşadığını iddia edirlər. "Ölkə.az" xəbər verir ki, bu günlərdə Mars planeti ilə bağlı yeni kəşf bir çox alimin də marağına səbəb olub.**



Bu dəfə də yeni kəşfə tayvanlı məşhur ufoloq Skott Uorinq imza atıb. Bir çoxları onun bu kəşfinə şübhə ilə yanaşsa da, ona inananların da sayı kifayət qədərdir. Skott NASA-nın lentə aldığı video və fotoları incələyərkən yeraltı bazaya giriş qapısını görüb. Söhbət adi qapıdan yox, 1 neçə kilometr ölçüsü olan qapıdan gedir. Digər fotolarda da bu qapı görünür və düzbucaqlı formadadır. Bu səbəbdən onun təbii yox, süni olduğu iddia edilib. Hələlik qapının kim tərəfindən və məhz hara açıldığı barədə məlumat yoxdur. Skott bildirir ki, kəşf etdiyi ərazi tərk edilmiş baza da olsa, gələcəkdə planetimizin sakinləri tərəfindən istifadə edilə bilər.

## Avtonom vasitələrə hörümçək hisləri verilə bilər

**Yeni nəsil avtonom vasitələr, 'hörümçək hissləri' sayəsində artıq daha ağıllı olacaq. Araşdırmaçılar; dron, təyyarə və avtomobillərə hörümçək hissləri əlavə etmək istəyir.**

Yəni məqsəd, avtonom vasitələrə qəzaları əngəlləmək üçün bir növ sensor əlavə etməkdir. "ACS Nano"da nümayiş olunan bir məqalədə, bir araşdırma qrupunun, avtonom vasitələrə hörümçəklərdən ilhamlanmış bir sensor əlavə etdiyi yazıldı. Bu sayədə vasitələrin daha sürətli məlumat seçərək əməliyyat etməsinə imkan veriləcək. "Deyerler.org" bildirir ki, bir ov hörümçək toruna düşdüyü zaman, hörümçəyin ayaqlarında olan tüklər müəyyən bir tezlikdə titrəyərək hörümçəyi hərəkətə keçirir. Ancaq tora bir toz düşdükdə, hörümçəyin ayaqlarında olan tüklər eyni tezlikdə titrəmir və buna görə də hörümçək hərəkətə keçmir. Araşdırmaçılar da eyni buna bənzər mexanizmə sahib bir sensor hazırlamaq istəyir. Araşdırmaçıların yaratdıqları sensorlar, xarici bir güc ilə rastlaşdıqda forma dəyişdirir. Forma dəyişməsi, keçirici hissələrin bir-birinə yaxınlaşmasını təmin edir və bu sayədə sensorların içindən elektrik köməyiylə siqnallar daşınır. Bu siqnallar, avtonom sistemin necə hərəkət edəcəyini təyin edir. Əgər araşdırmaçı qrup belə bir sensoru qüsursuz bir formada ratamağı bacarsa, gələcəkdə qəzalardan asanlıqla qaça bilən avtonom vasitələri görməyə və istifadə etməyə başlaya bilərik.





**Qoç** - Leda və Tefeyanın münasibətləri nəyin bahasına olursa-olsun, irəliləyişə və uğura nail olmağa çalışacağınız günü vəd edir. Situasiyanın istənilən vasitədən yararlanmağı tələb etdiyini düşünə bilərsiniz.



**Buğa** - Umbriel və Lisiteyanın münasibətləri uğursuz emosional fonlu gün vəd edir. Əhval-ruhiyyəniz stabil deyil. Sizi təbdən çıxarmaq üçün ən cüzi məsələ yetər. Yaxın adamlarla fikir ayrılığı yaranacaq.



**Əkizlər** - Mimas və Hiperionun münasibətləri sizə yaxşı gün vəd edir. Günün uğurları təsadüfi deyil. Onlar zəhmət və əzmin sonuclarıdır. Lakin belə işə başlamazdan əvvəl nəyi necə edəcəyinizi müəyyənləşdirin.



**Xərçəng** - Amalteya və Fobosun münasibətləri nikbin gün vəd edir. Problem yarana bilər, amma ruhdan düşməyin. Gec-tez istəyinizə çatacaq, məqsədinizi reallaşdıracaqsınız. Həmin uğurlu günün nə zaman olacağı isə sizin qətiyyət və əzminizdən asılıdır.



**Şir** - Serera və Neptunun münasibətləri günün ilk yarısında itki, kiçik münaqişə vəd edir. Bu problemlər sizi ciddi narahat etməməlidir. Yaxın ətrafınızdakı insanların tənqidlərinə və açıqlamalarına çox sərt, aqressiv reaksiya verməyin.



**Qız** - Pluton və Marsın münasibətləri günün ilk yarısının uğurlu olacağını vəd edir. Baş verən olaylara rəğmən, əhvalınız yaxşı olacaq. Lakin qələbənizə həddən ziyadə inanaraq xırdalıqlar və detalları nəzərdən qaçırmayın.



**Tərəzi** - Haumea və Yerin münasibətləri istənilən yaradıcı proseslər üçün uğurlu gün vəd edir. Yaxşı ideyalar və fantaziya qıtlığından şikayətlənməyəcəksiniz. Qəfil təkliflər istisna deyil.



**Əqrəb** - Makemake və Veneranın münasibətləri sizdən günün ilk yarısında ehtiyatlı davranmağı tələb edir. Səhv etmək asan, onun nəticələrini aradan qaldırmaq isə çətindir. Kimə etibar etmək, kiminlə də etinasız davranmaq gərəkliyini müəyyənləşdirin.



**Oxatan** - Erida və Merkurinin münasibətləri başladığınız işlərdə uğurlar vəd edir. Tam yeni işə və ya layihəyə başlamaq olar. Yetər ki, qətiyyət və əzm nümayiş etdirəsiniz. Sürəkli, ağır işə hazır olun. Ağır fiziki iş istisna deyil. Təmir və ya tikintiyə başlamaq, daşınmaz əmlakla bağlı əməliyyatlar aparmaq mümkündür.



**Oğlaq** - Mars və Eridanın münasibətləri sizdən qıcıqlı, hirsli olmamağı tələb edir. Emosiyaları tamamən nəzarətdə saxlamaq mümkün olmasa da, buna can atın. Emosiyalar sizə yaxın olan insanlarla münasibətlərinizə ağır zərbə vura bilər.



**Dolça** - Saturn və Veneranın münasibətləri istənilən faydalı işi məsləhət bilir. Sizin üçün çətin işlər yoxdur. Qarşınıza qoyduğunuz məqsədə çata bilərsiniz. Əsas məsələ emosiyalarınızı nəzarətdə saxlamaqdır.



**Balıqlar** - İmpulsiv, emosiyaların təsiri altında davranmayın. Hansısa addımı atmazdan əvvəl düşünün. Baş verənlərə yüksək sürətlə reaksiya verin, ətrafınızdakı insanları qabaqlayın. Lazımlı vaxtda lazımlı yerdə olun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qırmızı soğanın tərkibində xərçəng şişlərinə təsir edən maddələr var

**Qırmızı soğanın tərkibində olan antosianin adlı maddə xərçəng şişlərinin böyümə sürətini azaltmaq xüsusiyyətinə malikdir.**

"AZƏRTAC" bildirir ki, Kanadanın Quelf Universitetindən olan tədqiqatçılar soğanın 5 müxtəlif növündən alınan kversetin ekstraktının kolorektal xərçəng (bağırsaq xərçəngi) şişlərinin hüceyrələrinə təsirini öyrəniblər. Nəticədə, onlar belə qənaətə gəliblər ki, soğanın tərkibindəki maddə şiş toxumalarının böyümə sürətini azaltmaq xüsusiyyətinə malikdir. Bu mövzuda olan tədqiqatların nəticəsi "Food Research International" jurnalında dərc edilib. Ekspertlər qeyd ediblər ki, qırmızı soğanın tərkibi xərçəng şişlərinə qarşı mübarizədə ən güclü effekti ilə fərqlənir. Alimlər laboratoriya şəraitində sınaqlardan sonra bu nəticəyə gəliblər. Onlar bağırsaq şişinin soğan kverseti ekstraktı ilə birbaşa kontaktının nəticəsini müşahidə ediblər. Məlum olub ki, bu komponent xərçəngi süni şəkildə inkişaf etdirərək, DNT-nin zədələnməsinə səbəb olan sərbəst radikalları neytrallaşdırır. Bundan başqa, bu birləşmə iltihab əleyhinə təsirə də malikdir. Alimlər müəyyən ediblər ki, qırmızı soğanın tərkibi təkcə kversetinlə zəngin deyil. Bu tərəvəzin tərkibində, həmçinin xərçəng şişləri ilə mübarizəni gücləndirən böyük miqdarda antosianin də var.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.